www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 6 avqust 2015-ci il Cümə axşamı № 170 (6198) Qiymәti 40 qәpik

**Xəbər**

## 6 yaşlı azərbaycanlı uşaq Türkiyədə hovuzda boğuldu

yazısı səh.2-də

**Gündəm**

### Qarabağ təşəbbüskarlığı Rusiyadan Qərbə keçsə...



O halda həll modeli hüquqi qüvvəsi olmayan "Madrid prinsipləri"nə əsaslanacaq, yoxsa BMT, ATƏT, AŞ PA, AB qətnamələrinə?

yazısı səh.13-də

### Hakim 9 dil bilən fəlsəfə doktorunun başına oyun açır

yazısı səh.4-də

### Yeni seçki bloku yaranır

yazısı səh.6-da

### Manat üçün təhlükə var...

yazısı səh.5-də

### Arif Hacılının müavini Sərdar Cəlaloğluna təşəkkür etdi

yazısı səh.6-da

### Neftin ucuzlaşmasında ABŞ-İran amilinin rolu...

yazısı səh.7-də

### "Avrasiya Hərəkatı"na qoşulanların şübhəli susqunluğu

yazısı səh.8-də

### Tarif Şurasının qərarı satışda keyfiyyətsiz dərmanların artmasına yol açacaq

yazısı səh.11-də

### Bakıda evi erməni tərəfindən ələ keçirilən vətəndaşın dramı...

yazısı səh.12-də

### İran-Azərbaycan münasibətlərində yeni mərhələ açılır

yazısı səh.9-da

### "Lombardlar qanunsuz bank fəaliyyəti ilə məşğuldur"

yazısı səh.12-də

## Hansı məmurlara "qırmızı kart" veriləcək?

# NAZİRLƏR TƏLAŞDA - "KADR ƏMƏLİYYATI"NIN SİRRİ

Prezident nazirlərə reputasiyası korlanmış, adları rüşvət, korrupsiya və digər qalmaqallarda hallanan adamlarını "təmizləməyi" tapşırıb; həm Fazil Məmmədov, həm də Ziya Məmmədov ən yaxın adamlarını işdən çıxarırlar; proses əks nəticə də verə bilər...



yazısı səh.5-də

## Ankara və Vaşinqton böyük strateji anlaşma içində

Türkiyə ABŞ-la İŞİD-ə qarşı birgə əməliyyat hazırlayır; **Amerika mətbuatı:** "Yaxın Şərqdə xəritə dəyişəcək, bölgənin gələcəyini Türkiyə və ABŞ prezidentlərinin görüşü həll edəcək..."

yazısı səh.9-da



### Fəzail Ağamalı ABŞ-ın təzyiqlərinin səbəbini açıqladı

yazısı səh.8-də



*Fəridə Zahidova:*

### "Mənim uşağımı Qənimətin qurbanı etməsinlər..."

yazısı səh.10-da



### Hacı İbrahimlə "A.M.A.Y. Abdulla"nı birləşdirən məqamlar ortaya çıxdı

yazısı səh.3-də

# 6 avqust 2015

YENİ MÜSAVAT
N 170 (6198) 6 avqust 2015



# Prezident "Dini mədəniyyətin inkişafı" fonduna 3 milyon manat ayırdı

**Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycanda dini mədəniyyətin, tolerantlığın, dinlərarası və mədəniyyətlərarası dialoqun təbliğinin gücləndirilməsinə dair əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

**Sərəncamda deyilir:**

**1.** Azərbaycanda dini mədəniyyətin, tolerantlığın, dinlərarası və mədəniyyətlərarası dialoqun təbliğinin gücləndirilməsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan "Dini mədəniyyətin inkişafı" fonduna 3,0 (üç) milyon manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin".

# Borcdan canını qurtarmaq üçün polisə yalan məlumat verdi

**Polisə yalan məlumat verən şəxs saxlanılıb. Daxili İşlər Nazirliyinin avqustun 4-də "102" xidmətinə zəng vuraraq Neftçilər prospekti 131 ünvanında yerləşən "Park Bulvar" ticarət mərkəzində partlayıcı qurğu yerləşdirilməsi barədə yalan məlumat verən şəxs müəyyən edilib. Lent.az-ın əldə etdiyi məlumata görə, araşdırmalar nəticəsində həmin şəxsin Kəlbəcər rayonundan məcburi köçkün, Suraxanı rayonunda məskunlaşmış 1970-ci il təvəllüdlü Allahverdiyev İsmayıl Həbib oğlu olması bəlli olub. O, polis tərəfindən saxlanılıb. İlkin dindirmə zamanı 45 yaşlı İ.Allahverdiyevin bir neçə nəfərə xeyli miqdarda pul borclu olması üzə çıxıb. O, ifadəsində qeyd edib ki, özü qəsdən polisə yalan məlumat verib və həbs olunmaq yolu ilə borc yiyələrindən bir müddətlik yaxa qurtarmaq istəyib.**

Araşdırmalar davam etdirilir.

# "İranla razılaşmaya əngəl törədilsə, "Hizbullah" raketləri Təl Əvivə istiqamətləndirə bilər"



**"İranla nüvə sazişinə əngəl törədilsə, regionda gərginlik arta bilər. "Hizbullah" isə raketləri Təl Əvivə istiqamətləndirə bilər". APA-nın "Reuters"ə istinadən verdiyi xəbər görə, bunu ABŞ prezidenti Barak Obama Ağ Evdə Yəhudi Milli Demokratik Şurasının liderləri ilə görüşü zamanı deyib.**

Obama İranla "altılıq" ölkələri arasında əldə edilmiş razılaşmanın iflasa uğrayacağı təqdirdə, dəhşətli fəsadların baş verə biləcəyini deyib. ABŞ prezidentinin sözlərinə görə, belə olan halda terrorizmə dəstək artacaq.

İsrailin baş naziri Benyamin Netanyahu isə Amerika yəhudilərinə videomüraciətində Obama administrasiyası tərəfindən irəli sürülən arqumentlərlə razılaşmadığını dilə gətirib. Onun sözlərinə görə, razılaşma İranın nüvə silahı əldə etmək planlarının qarşısını almaq üçün kifayət deyil.

"Mən müharibə istədiyim üçün yox, müharibənin qarşısını almaq istədiyim üçün bu razılaşmanın əleyhinəyəm. Bu razılaşma isə müharibəyə gətirib çıxaracaq", - deyə Netanyahu əlavə edib.

Xatırladaq ki, bu ilin martında ABŞ Konqresində İranla nüvə razılaşmasının əleyhinə çıxış edən B. Netanyahu Ağ Evin qəzəbinə tuş gəlib.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012)421-10-46; (012)323-55-21; (055)660-60-95;
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74; (055) 660-07-05

# Azay Quliyevin təşəbbüsü ilə Şirvanda infrastruktur layihələrinin icrasına başlanılır

Avqustun 5-də millət vəkili Azay Quliyev və "Şərq-Qərb" İdarəetmə İnstitutunun rəhbərliyi Şirvan İcra Hakimiyyətində görüş keçirib. Görüşdə Şirvan seçicilərinin müraciətləri əsasında millət vəkili Azay Quliyevin təşəbbüsü ilə hazırlanan infrastruktur layihələri ətraflı müzakirə edilib. Məlumat verilib ki, Şirvanda 5 infrastruktur layihəsi həyata keçiriləcək. Bu sıraya Heydər Əliyev və Leytenant Mahmud İbrahimov küçələrində 850 ailənin yaşadığı məhəllələrdə mərasim evlərinin yenidən qurulması, Məhəmməd Əmin Rəsulzadə küçəsində 132 ailənin yaşadığı məhəllədə mərasim evinin tikintisi, Səməd Vurğun küçəsində 180 ailənin yaşadığı 2, Gülbala Şıxbalaoğlu küçəsində 175 ailənin yaşadığı 3 ictimai yaşayış binasının dam örtüklərinin təmiri, Neftçilər küçəsində 1200 sakinin yaşadığı ərazidəki 1 km məhəllədaxili yola asfalt örtüyün çəkilməsi, Bayramlı qəsəbəsində idman meydançasının tikintisi və digər məsələlər daxildir.



Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalov reallaşdırılması nəzərədə tutulan layihələrin əhəmiyyətini vurğulayaraq onların həyata keçirilməsi üçün müvafiq şəraitin yaradılacağını deyib.

Daha sonra deputat Azay Quliyev, Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalov, "SEDA" proqramının rəhbəri Tim Madiqan və proqramın infrastruktur layihələrinin icraçısı "Ümid" Sosial İnkişafa Dəstək İctimai Birliyinin sədri İsrail İsgəndərov layihələrinin həyata keçiriləcəyi yerlərə baxış keçirib və yerli sakinlərlə görüşərək fikir mübadiləsi aparıb.

Qeyd edək ki, adıçəkilən layihələrin "Azərbaycanda Sosil-iqtisadi İnkişaf Fəaliyyəti" (SEDA) proqramı çərçivəsində həyata keçirilməsi nəzərdə tutulur.



# Azərbaycanlı ailənin tətili faciə ilə bitdi: 6 yaşlı uşaq hovuzda boğuldu

**Türkiyəyə tətilə gedən azərbaycanlı ailənin tətili faciə ilə bitib. Musavat.com Türkiyənin "Hürriyet" qəzetinə istinadən xəbər verir ki, Antalyanın Kəmər bölgəsinə ailəsi ilə tətilə gedən 6 yaşlı Leyla Rzayeva istirahət etdikləri hotelin hovuzuna düşərək boğulub.**

Hovuza düşən Leylanı turistlər çıxarıb. Kəmər Həyat Xəstəxanasına, oradan da Antalya Həyat Xəstəxanasına aparılan Leylanı xilas etmək mümkün olmayıb.

Leyla Rzayevanın xalası Ramidə Quliyeva hotelin heç bir təhlükəsizlik tədbiri görmədiyini və hotel rəhbərliyini məhkəməyə verəcəklərini deyib.

Qeyd edək ki, bu, Türkiyədə son 2 gündə hotellərin hovuzunda 3-cü uşaq boğulması hadisəsidir.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33

# "Bank Technique" ipoteka ödənişlərinin qəbulunu dayandırıb




**"Bank Technique"nin müştəriləri üçün daha bir çətinlik yaranıb. "APA-Economics"in məlumatına görə, bank ipoteka kreditlərinə görə ödənişləri qəbul etməyi dayandırıb. Bankdan bildirilib ki, ipoteka ödənişlərinin qəbulunun dayandırılması sırf texniki məsələlərlə bağlıdır: "İpoteka ödənişlərinin "Bank Technique"də dayandırılması iddia edildiyi kimi, bankın guya çətin vəziyyətə düşməsi ilə əlaqədar deyil. Sadəcə olaraq, İpoteka Fondunun vəsaitləri hesabına vətəndaşlara ayrılmış kreditlər üzrə ödənişlərin APUS (Hökümət Ödəniş Portalı) sistemi vasitəsilə yığılmasına keçidlə əlaqədar, bu ödənişlərin müştərilərin birbaşa bank hesabına qəbulu dayandırılıb".**

Azərbaycan İpoteka Fondundan da "APA-Economics"ə "Bank Technique"nin ipoteka kreditlərinə görə ödənişləri qəbul edə bilmədiyini təsdiqləyiblər. Fonddan da bunu sırf texniki səbəblərlə əlaqələndiriblər: "Ötən ildən ipoteka kreditləri üzrə ödənişlər elektron ipoteka sisteminin işə düşməsi nəticəsində Hökumət Ödəniş Portalı vasitəsilə ödənilir. O cümlədən ipoteka kreditləri istənilən bank, istənilən "Azərpoçt" MMC vasitəsilə, eləcə də internet resurslarından, ödəniş kartlarından istifadə etməklə rahat ödənilir. Bu sistem vətəndaşların ödənişləri rahat həyata keçirməsi, onların vaxtlarına qənaət olması və şəffaflığın təmin olunması məqsədilə tətbiq olunub. "Bank Technique" ilə bağlı məsələ isə sırf texniki məsələdir. Hər bir bankın Hökumət Ödəniş Portalına keçid dövrü olur. "Bank Technique"də həmin keçid mərhələsi başa çatmaq üzrədir. Həmin keçid mərhələsi başa çatdıqdan sonra müştərilər yenidən "Bank Technique"yə müraciət etməklə ödənişlərini həyata keçirə biləcəklər".

**Fonddan əlavə ediblər ki, nəinki "Bank Technique"nin, digər bankların da müştəriləri istənilən ödəniş məntəqəsində ipoteka kreditlərini ödəyə bilərlər:** "İstər "Bank Technique"nin müştərisi, istərsə də digər bankın müştərisi istənilən ödəniş məntəqəsində, "Azərpoçt" MMC-nin filiallarına, o cümlədən Hökumət Ödəniş Portalına daxil olmaqla ödənişləri həyata keçirə biləcəklər".

Fonddan onu da vurğulayıblar ki, yaxın zamanlarda "Bank Technique"nin sistemə inteqrasiyası başa çatacaq və müştərilərin ödəniş etməsində problem olmayacaq.

# "Yeni Həyat" şirkəti bağlandı

**Azərbaycanda 14 il fəaliyyət göstərən "Yeni Həyat" MMC ləğv olunub. "APA-Economics" Vergilər Nazirliyinə istinadən xəbər verir ki, şirkət bağlanmasını rəsmən bəyan edib.**

Qurum bağlanması ilə əlaqədar kreditorların iki ay ərzində tələblərini irəli sürməsini elan edib. Kreditorlar bunun üçün Bakı şəhəri, Nobel prospekti,15 ("Azure" yaşayış-əyləncə kompleksinin binası) ünvanına yaxınlaşa bilər.

Xatırladaq ki, "Yeni Həyat" MMC 2002-ci ildə yaradılıb.

"Yeni Həyat" iri şirkətlərdən biri idi, böyük yaşayış kompleksləri inşa edib. Hazırda da şirkətin yarımçıq qalan binaları var.

# Yunusların məhkəmə istintaqı yekunlaşır

## Məhkəmədə Arif Yunusun halı yenə pisləşib; Leyla Yunus prokuroru "cəllad" adlandırıb

**Avqustun 5-də Bakı Ağır Cinayətlər Məhkəməsində Leyla və Arif Yunusların işi üzrə prosesə yenə jurnalistlər, vətəndaş cəmiyyətinin fəalları və beynəlxalq təşkilatların nümayəndələri buraxılmayıblar. Yalnız ABŞ, Böyük Britaniya və Almaniya səfirliklərinin əməkdaşları prosesdə iştirak edə biliblər.**

Məhkəmə administrasiyası lazım bildiyi adamları arxa qapıdan zala buraxıb. Tezliklə həmin şəxslərdən biri, özünü adı heç yerdə çəkilməyən Şah İsmayıl Partiyasının rəhbəri adlandıran Emin Ədalətli zaldan çıxıb. O, iclasın əvvəlində L.Yunus səhhətinin pisləşdiyini bildirib: o 15 kiloqram arıqlayıb, dərmanları qurtarıb. Sonra dərman alınması üçün Almaniya səfirliyinin nümayəndəsinə müraciət edib.

L.Yunus prosesin ədalətsiz aparılmasına etirazını bildirib.

Presesin gedişində Arif Yunusun səhhəti pisləşib. Bu barədə vəkil Ramiz Məmmədov məhkəmə zalından çıxdıqdan sonra jurnalistlərə bildirib.

Onun sözlərinə görə, A.Yunus proses zamanı müttəhimlər kürsüsündə uzanıb, ona tibbi yardım göstərilmir. Məhkəmə iclasından öncə iynə vurulub.

L.Yunus həyat yoldaşına tibbi yardımın göstərilməsini tələb edib. Hakim bildirib ki, lazım olarsa yardım göstəriləcək.

Vəkilin sözlərinə görə, məhkəmə əlavə şahidlərin və donor təşkilatlarının nümayəndələrinin çağırılması barədə müdafiə tərəfinin vəsatətinə baxmayıb.

Sonra prosesdə sənədlərin araşdırılmasına başlanılıb.

**L.Yunus dövlət ittihamçısına müraciət edərək onu "cəllad" adlandırıb:** "Azərbaycanın məhkəmə praktikasında yataq xəstəsinin məhkəmə prosesinin keçirilməsi halı olmayıb. Görünür, Bakı Ağır Cinayətlər Məhkəməsində Misirin təcrübəsindən istfadə etmək qərarına gəliblər. Belə ki, orada da diktator Mübarəki belə mühakimə etmişdilər. Ancaq o, xərəkdə uzanmışdı, müttəhimlər üçün ayrılan taxta skamyada yox".

Çərşənbə günü hüquq müdafiəçiləri Leyla və Arif Yunusun işi üzrə məhkəmə prosesi sənədlərin araşdırılması ilə başa çatıb.

Vəkil Elçin Qəmbərov jurnalistlərə bildirib ki, məhkəmə A.Yunusun səhhətinin pis olması səbəbindən dinləmələrin təxirə salınması barədə müdafiə tərəfinin vəsatətini təmin etməyib və prosesi davam etdirib.

Hakim məhkəmə istintaqının başa çatdığını elan edərək prokurorun çıxışını avqustun 6-na təyin edib.

YENİ MÜSAVAT
N 170 (6198) 6 avqust 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Hacı İbrahimlə "A.M.A.Y. Abdulla"nı birləşdirən məqamlar ortaya çıxdı

**Azərbaycan Beynəlxalq Bankı "Xəzər Adaları" layihəsinin rəhbəri, "Avesta" konserninin prezidenti Hacı İbrahim Nehrəmlinin banka qarşı məhkəmə iddiasına şərh vermir. Bankın mətbuat xidmətindən "Yeni Müsavat"ın sorğusuna cavab olaraq belə bildiriblər. Qeyd edək ki, Hacı İbrahim Nehrəmli DİN Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə çağırılması haqda xəbərlərə münasibət bildirərkən deyib ki, Beynəlxalq Bankı məhkəməyə verəcək. Onun sözlərinə görə, banka ümumilikdə 450 milyon manat kredit borcu var.**

## "Avesta" konserninin rəhbərinin öz işçilərinin adına külli miqdarda kredit götürdüyü deyilir; Beynəlxalq Bank isə iş adamının iddiasına münasibət bildirmək istəmir



Beynəlxalq Bankdan nümayəndə heyəti onun 5 obyektini qiymətləndirib. "Həmin 5 obyektə bankın qoyduğu qiymət 1.5 milyard manat oldu. Əgər bank mənim borclarımı ödəməyimi istəyirsə, gəlib həmin obyektlərimi ala bilər. 2 gündən bir "Bandotdel" tərəfindən çağırılmağım doğru deyil. Mən bankı buna görə məhkəməyə verməyə hazırlaşıram" - deyə iş adamı bildirmişdi. Qeyd etmişdi ki, özü ilə yanaşı işçilərini də istintaqa çağırırlar: "Dünən mənim işçilərimdən bəzilərini şəxsi kredit borcları olduğu üçün Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə çağırmışdılar. Lakin bu, onların şəxsi borclarıdır. Mənimlə heç bir əlaqəsi yoxdur. Ancaq mənə də dünən axşam saatlarında "Bandotdel"dən zəng ediblər ki, sabah səhər saatlarında gəlin görüşək. Mən də bu gün görüşmək üçün idarəyə gedəcəm".

Belə məlumatlar var ki, iş adamı işçilərinin adına müxtəlif məbləğlərdə kredit götürüb. Ona görə də işçiləri ilə yanaşı onun özünü də istintaqa çağırırlar. Ümumiyyətlə, ölkədə belə praktika mövcuddur. Məsələn, hazırda həbsdə olan "A.M.A.Y." ticarət mərkəzinin sahibi Abdulla Abdullayev 31 işçinin adına müəssisə təsis etdirib və "Texnikabank"dan 40 milyon 150 min manat kredit götürüb. Bugünlərdə redaksiyamıza müraciət edən Kəlbəcər köçkünü Əli Bayramov deyib ki, 30 nəfərdən çox qohumunun adına banklardan 100 min manata qədər kredit götürüb və Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısına rüşvət şəklində verib. Hacı İbrahim Nehrəmlinin də bu praktikadan istifadə etdiyi haqda məlumatlar var.

Xatırladaq ki, "Avesta" konserninin prezidenti Hacı İbrahim Beynəlxalq Banka olan kredit borclarını ödəmədiyi üçün mayın 13-də də saxlanmışdı. Hacı İbrahim bank qarşısındakı öhdəliklərini yerinə yetirməyi vəd edəndən sonra mayın 27-də sərbəst buraxılmışdı. "Turan"ın məlumatına görə, hazırda BMCMİ-də Beynəlxalq Banka kreditlərini ödəyə bilməyən 20-yə yaxın iş adamı saxlanılır. Tutulanların 50 milyon dollardan 340 milyon dollara qədər öhdəliyi var. Maraqlıdır ki, Beynəlxalq Bank işçilərindən Dubay nümayəndəliyinin keçmiş rəhbəri Adil Hüseynovdan başqa heç kim saxlanılmayıb. Qeyd etmək lazımdır ki, istənilən bank kreditləri müvafiq girov müqabilində verir. Amma heç kim yuxarıda adıçəkilən kreditlər üçün nəyin girov qoyulduğunu deyə bilmir və əgər girov qoyulubsa, niyə onu satışa çıxarmırlar? Baş verənlər göstərir ki, Beynəlxalq Bankdan qaydalar və normalar pozulmaqla böyük kreditlər verilib. Bunu isə bankın rəhbərliyinin icazəsi olmadan həyata keçirmək mümkün deyil. Belə olan halda Cahangir Hacıyevin həbsdən kənarda qalması maraq doğurmaya bilməz...

Məlumdur ki, iyulun 15-də dövlət başçısı Beynəlxalq Bankdakı dövlətin payının özəlləşdirilməsinə hazırlıq haqda fərman imzalayıb. Məlumata görə, Maliyyə Nazirliyinə 15 gün ərzində problemli kreditləri bankdan çıxarmaq və "Aqrarkredit" QSC qeyri-bank kredit təşkilatının balansına vermək tapşırılıb. Sonradan bu kredit təşkilatı dövlət zəmanəti ilə uzunmüddətli istiqrazlar buraxacaq. Həmçinin dövlət büdcəsində dövlət borcunun limiti hesabına ABB-nin problemli aktivləri üzrə öhdəlikləri yenidən təşkil etmək nəzərdə tutulur. 6 aydan gec olmayaraq ABB-də 50,2 faizlik dövlət payının satışı üzrə tədbirlər planı hazır olmalıdır. Hələ 2009-cu ildə Fitch reytinq agentliyi ABB-nin bütün kreditlərinin təxminən üçdə birini problemli kreditlər kateqoriyasına aid edib. Bu günə bankda problemli kreditlərin həcmi 27,8% təşkil edir. Onların 18,6%-nin müddəti keçib və 9,2%-i yenidən təşkil edilib. Lakin hakimiyyət müddəti keçmiş və problemli kreditlərin siyahısını açıqlamır. Qeyri-rəsmi məlumatlara görə, BB-də ən böyük kreditləri İbrahim İbrahimov - "Xəzər Adaları"nın tikintisi üçün və Nizami Piriyev - Metanol Zavodunun tikintisi üçün - alıb. Piriyev yüz milyonlarla dollar dəyəri olan zavodu tiksə də, İbrahimov hələ də heç nə tikməyib. Qeyri-rəsmi məlumatlara görə, hər iki halda söhbət yüz milyonlarla dollar kreditdən gedir.

❑ **E.MƏMMƏDƏLİYEV**

# "Mənim Sülh və Demokratiya İnstitutundan pul almadığım doğrudur"

## Mətanət Əzizova məhkəmədə elan edilən ifadəsindən danışdı

**Sülh və Demokratiya İnstitutunun direktoru Leyla Yunusun məhkəməsində ifadələr açıqlanır. Bunlardan biri də Qadın Krizis Mərkəzinin rəhbəri, hazırda Praqada yaşayan Mətanət Əzizovanın yolladığı yazılı məktubdur. "Yeni Müsavat"ın əməkdaşı M.Əzizova ilə sosial şəbəkə vasitəsilə bu məktub barədə danışıb.**


Mətanət Əzizova

***- Mətanət xanım, yaqin məhkəmədə sizin adınızdan açıqlanan məktubdan xəbəriniz var. Xəbərlərdə deyilir ki, "M. Əzizova istintaqa verdiyi ifadəsini təsdiqləyərək, Leyla Yunusdan dəfələrlə pul aldığını bildirib. O da bildirib ki, Qadın Krizis Mərkəzi qeydiyyatdan keçmədiyi üçün xaricdən təşkilata ayrılan pullar Ön Qafqaz Qadınlarının Cəmiyyətinin hesabına köçürülüb. Dəfələrlə Leyla Yunusla görüşərək, həmin pulları alıb. M. Əzizova Leyla Yunusun Ermənistanda dəfələrlə tədbirlər keçirdiyini və buna görə qrantlar aldığını yazıb. Bildirib ki, Leyla Yunus Sülh və Demokratiya İnstitutunun xətti ilə keçirilən tədbirlərə görə ona pul verməyib".***

- Bəli, bu ifadələri mən vermişəm və bu, düz, həqiqətdir. Bircə Ermənistan məsələsi həqiqətə uyğun deyil. Mənim Ermənistanla bağlı layihələrim olmayıb və bu haqda da informasiyam yoxdur.

***- Yəni Leyla Yunusun təşkilatının xətti ilə keçirilən layihələrə görə sizə pul verilməməsi də doğrudur?***

- Əlbəttə ki, mən Sülh və Demokratiya İnstitutundan pul almamışam.

***- Mətanət xanım, Ermənistan məsələsini kim əlavə edib sizin ifadənizə? Yazılı yollamısız ifadənizi?***

- İndi dəqiq yadımda deyil. Amma yadımda qalan odur ki, Ermənistanla əlaqədar layihələrdə iştirak etmədiyimi və pul almadığımı demişəm. Yadımda bu qalıb.

***- Bu ifadənizin Leyla Yunusa ziyan vuracağını düşünənlər var. Yəni buna görə qınaq hədəfi ola biləcəyinizdən ehtiyatlanmırsız?***

- Xeyr.

***- Bəs sizcə, bu ifadə Leyla xanimin xeyrinə ola bilərmi?***

- Ümumiyyətlə, bu sözlər heç bir qüvvə daşımayan sözlərdir. Mətanət Əzizova filan layihədə iştirak etdi və ya etmədi, bunun heç bir əhəmiyyəti yoxdur. Nə ziyana, nə də xeyrə.

***- Sizin ifadənizdə Leyla Yunusun durumunu yüngülləşdirəcək, ona xeyri dəyəcək hansı məqamlar var?***

- Düzü, bilmirəm. Amma mən Qadın Krizis Mərkəzinə aid suallara cavab vermişəm.

***- İfadənizə Ermənistan məqamını kimin əlavə etdiyini aydınlaşdıracaqsızmı? Ya da məhkəməyə etiraz məktubu göndərməyi düşünürsüz?***

- Xeyr. Çünki mən bildiyimə görə, KİV-də yanlış məlumat gedib. İndi yadımda deyil, hansı KİV nə yazıb. Amma mənə deyildi ki, məhkəmədə mən deyən kimi oxundu. Yəni Mətanətin Ermənistanla layihələri olmayıb, layihələrdə iştirak etməyib, pul almayıb. Kefdir e bu insanlar. Deyim ki, var idi? Olmayan yerdə nəcə deyim?

❑ **Sevinc TELMANQIZI**

# Gənclik... Müharibə... Azadlıq...

**Bu üç sözün ayrı-ayrılıqda ifadə etdikləri mənanı və həyat həqiqətlərini bir çətir altında düşünmək çox çətindir. Amma bunları öz həyatında yaşadan insanlar var və bu insanlardan biri - Səfa Poladovdan söz açacam.**



**Səfa Poladov** - gəncliyində müharibəyə atılan, müharibənin sərt dalğasında azadlığını itirən və bu gün 48 yaşını həbsxanada qeyd edən döyüşçü-məhbus...

Vətən uğrunda döyüşlərdə silahlı düşmənlərlə vuruşan, dostlarını itirən, çoxsaylı yaralar, kontuziya alanlar 20 ildən artıqdır ki, həbsxanada oturur. XTPD-nin necə döyüşdüyünü unutduqmu, görəsən? Onlar hələ də əfv olunmağa layiq deyillərmi? Ən yeni tariximiz çox ziddiyyətlər yaşadır. O ziddiyyətlərin bu gün də yaşanan məqamlarından biri müntəzəm ordu dəstələri formalaşmazdan əvvəl zamanın milis işçiləri - XTPD üzvlərinin məhkumə olunmasıdır. Bu məhkumların bir çoxu əfv olunaraq azadlığa çıxıb. Hələ də həbsdə olan və səhhəti ilə bağlı ciddi problemlər yaşayan məhkumlardan biri də Səfa Poladovdur. XTMD əməkdaşlarının ittiham olunduqları 1995-ci ilin mart hadisələri ilə bağlı hazırda cəmi iki nəfər həbsdədir və onlar Qobustan qapalı həbsxanasında cəza çəkir. Bunlar Səfa Poladov və Arif Kazımovdur. Həbs edilərkən S.Poladovun 29 yaşı olub. Təsəvvür edin ki, dövlət çevrilişinə cəhd etmiş Surət Hüseynov, torpaqların ermənilərə satılmasında əli olduğuna görə həbs edilmiş Rəhim Qazıyev və Azərbaycanı parçalamaq istəyən Ələkrəm Hümmətov azadlığa buraxılıb, amma Səfa Poladov hələ də həbsdədirlər. Yəni onun günahı adlarını çəkdiyimiz vətən xainlərindən dahamı çoxdur ki, azadlığa buraxılmırlar?

Səfa Poladov döyüşçü-məhkum kimi həm də dövlətə və vətənə sədaqət göstərib. Ağır məhbus illərində, hətta səhhətinin ən ağır anında belə ümid və inam nöqtəsi olaraq Azərbaycan Prezidentinə üz tutub, azadlığını ölkə rəhbərindən istəyib.

Bayraq və dövlət uğrunda savaşa qatılan, siyasi oyunların təsadüfi qurbanı kimi məhkum həyatı yaşayan Səfa Poladov da minlərlə məhbusa sevinc bəxş edən prezidentə ümidlidir.

Doğum gününün mübarək, Səfa qardaşım!

Ən yaxında Azadlığına qovuşmaq diləyi ilə bütün dostların və səni sevənlər adından

❑ **Əlişir ƏHƏD**

YENİ MÜSAVAT
N 170 (6198) 6 avqust 2015



# İran yeni situasiya yaradır?..

Hüseynbala SƏLİMOV

**Xoşbəxtlikdən hələ ki Azərbaycanda panika yaşanmır. Rusiyada isə əsl panikadır... Rusiyalı təhlilçilər bütün günü Ukraynadan danışan televiziyalara ironiya edərək yazırlar ki, Ukraynanın dərdini çəkdiyimiz yetər, “Rusiyanı xilasetmə komitəsi”ni yaratmağın vaxtıdır...**

Məsələ bundadır ki, hələ bir neçə ay bundan əvvəl yayda neftin qiymətinin sabitləşəcəyi ehtimal edilsə də, indi bu gümanlara bir az şübhə ilə yanaşmaq lazım gəlir, çünki son bir neçə gündə davamlı olaraq dünya birjalarından neftin qiymətinin düşməsi haqda xəbərlər gəlir...

Düzdür, yayın ilk aylarında nisbi sabitlik vardı. Amma indi bunu demək olduqca çətindir, çünki son günlərdə neftin qiymətinin hətta kritik həddən belə - 50 dollardan da aşağı düşməsi haqda xəbərlər yayıldı...

Səbəb kimi bir neçə amil göstərilir. Bunlardan biri odur ki, böyük neft istehlakçıları son vaxtlar istehlak həcmlərini bir qədər azaldıblar. Bu, isə istər-istəməz bazara təsirini göstərir, çünki təklif tələbi üstələyir...

Başqa mümkün səbəb o ola bilər ki, bir ay, ay yarım bundan əvvəl ABŞ-ın öz neft ehtiyatlarının bir hissəsini bazara çıxarmaq istədiyi haqda xəbərlər yayılmışdı... Hətta bu, doğrulmasa belə, məlumatlar dərhal qiymət konyunkturasına öz təsirini göstərir, çünki qiymətlərin kövrək tarazlıq halında olduğu vaxtda hətta adi bir şayiə də bu tarazlığı pozmaq iqtidarındadır...

Və nəhayət, İranla razılaşmanın əldə olunması da təsirsiz ötüşmür, çünki hər bir an bazara böyük neft və qaz nəhənginin sıçrayışı gözlənilir...

İndi Avropa ölkələri İranla münasibətləri yoluna qoymaq üçün az qala yarışa giriblər, dünyanın nüfuzlu diplomatları üçün hazırda Tehran cəlbedici ünvana çevrilib. İran özü isə sanksiyaların götürülməsini gözləyir və heç də gizlətmir ki, sanksiyaların götürüləcəyi təqdirdə neft hasilatını bir neçə dəfə artıracaq...

Aydın məsələdir ki, Qərb, necə deyərlər, İranın qara gözlərinə aşiq olmamışdı və irəlicədən məlum idi ki, yalnız İran Rusiyanın Avropanın enerji bazarındakı hegemonluğuna son qoya bilər. Amma hələlik sanksiyaların tam da olmasa, hiss olunacaq dərəcədə götürülməsini gözləmək lazım gəlir. Bəlli olduğu kimi, İran sanksiyaların tamam götürülməsini israr edirdi və danışıqlar zamanı son olaraq belə də qəbul olunmuşdu. Düzdür, hələ də “iransayağı variasiyalar” da davam edir - bir də görürsən ki, rəsmi Tehran özünün nüvə obyektlərinə, məsələn, amerikalı müfəttişləri buraxmayacağı ilə hədələyir. Bu kimi detalları nəzərə almasaq, proses hələ ki rəvan gedir və hamı İranın dünya enerji bazarına yeni həcmlərlə daxil olacağı günü gözləyir...

Hələ o vaxt yazmışdıq ki, İranla Qərb arasındakı razılaşma Azərbaycan diplomatiyasını izafi şərtlərdən azad etsə də, neft və qaz məsələsində bu iki ölkə daha çox rəqibdirlər...

Hələlik neftin qiymətinin ilkin dalğaları Azərbaycan iqtisadiyyatında “xırda təkanlar” kimi hiss olunub. Amma bu dalğalar böyük olsa, neft kəskin şəkildə ucuzlaşsa necə olacaq?..

Onu deyək ki, iqtisadçılar hətta bu perspektivi nəzəri olaraq təhlil etməkdən ehtiyat edirlər, çünki ölkədə bir neçə ilin ərzində bərqərar olan sabitlik bir an içində əldən verilə bilər...

Bu, çox maraqlı prosesdir-insanlar, adi istehlakçılar birmənalı şəkildə bilirlər ki, böhran onlar üçün yalnız problemlər gətirəcək və onların yoxsullaşmasına səbəb olacaq. Amma iş adamları, işgüzar təbəqə səhv olaraq belə hesab edir ki, onlar prosesdən qazanacaqlar...

Təbii ki, neftin ucuzlaşması təkcə inflyasiya ilə qorxutmur. Ölkədə böyük layihələr dayandırılıb. Onlar iki aspektdən bir daha bərpa olunmaya bilərlər. Bu layihələr arasında elələri var ki, onların icrası üçün sadəcə, vəsait çatmır. Elələri də var ki, onların rentabelliyi, nə qədər səmərəli olması gündəliyə gələ bilər...

Məlumdur ki, Azərbaycan bir neçə ildir ki, böyük qaz layihəsi reallaşdırmaq istəyir. İran qaz bazarına yeni güclərlə daxil olarsa, bu layihə öz səmərəliliyini itirməyəcəkmi? Məsələ də bundadır. Düzdür, bəzi iqtisadçılar diqqəti böyük neft layihələrinin imzalanması ərəfəsindəki vəziyyətə yönəltməyə cəhd edirlər - o vaxt neft indikindən də qat-qat ucuz idi...

Amma o dövrdə Azərbaycanın başqa seçimi də yox idi, ölkə üçün hətta çox az miqdarda belə gəlir vacib idi - onda hələ heç kim proqnozlaşdırılandan artıq gəlir haqqında düşünmürdü. İndi isə 2015-ci ildir...

# Hakim 9 dil bilən fəlsəfə doktorunun başına oyun açır

**Riyaziyyat üzrə fəlsəfə doktoru, 9 dil bilən Çingiz Xəlilzadə Azərbaycan məhkəmələrində üzləşdiyi qanunsuzluqlardan şikayətçidir. 20 ildən artıq xarici ölkələrdə, o cümlədən uzun illər Türkiyədə yaşayan Ç.Xəlilzadə deyir ki, Yasamal Rayon Məhkəməsinin hakimi İlahə Abbasova ailə düşmənçiliyi zəminində nəyin bahasına olursa-olsun onu tutdurmaq istəyir.**

## Çingiz Xəlilzadə: “Hər dəqiqə məni aparıb başıma istənilən bəlanı gətirə bilərlər”



İlahə Abbasova

“Həyat yoldaşım Röya Adıgözəlova ilə 2012-ci ildə rəsmi qaydada ayrılmışam. Boşanandan sonra keçmiş həyat yoldaşım birgə nikah dövründə əmlak və pul vəsaitinin bölünməsi tələbi ilə məhkəməyə müraciət edib. Necə deyərlər, mənim qara günlərim məhz bundan sonra başlayıb. Boşanmamışdan öncə ”Park Panama“ yaşayış kompleksindən 220 min dollara mənzil almaq istəyirdim. Əvvəlcə 17 min dollar beh verdim. Yerdə qalan hissəsini də ipoteka yolu ilə ödəyəcəkdim. Amma indi baxın görün nələr olur” - deyə, Ç.Xəlilzadə bildirir.

**O deyir ki, boşanma məsələsi ortalığa çıxandan sonra mənzili almaqdan vaz keçib:** “Evi geri qaytardım, beh də batdı. Keçmiş həyat yoldaşım və onun hakim bacısı saxta sənədlər topladılar. Həmin sənədlərin saxta surətini çıxardılar, başqa bir şəxsin müqaviləsini götürüb, onun adını silib adımı yazırlar və əvəzimdən imza atırlar ki, guya mən həmin evə görə 100 min manat almışam. Əgər mənzilə görə pul ödəməmişəmsə bu pulu mənə necə qaytara bilərlər?! Keçmiş həyat yoldaşım həmin sənədə əsaslanıb məndən 50 min manat tələb edir və məhkəmələri də uda-uda gedirlər. Amma iş bununla bitmir. Məni bir müddət sonra Sabunçu Rayon Polis İdarəsinə dəvət etdilər. Heç bir əsas olmadan keçmiş baldızım məni Nardaran qəsəbəsində yerləşən, ona məxsus olan bağ sahəsini yandırmaqda ittiham etdi. Hətta 2014-cü il noyabr ayında Sabunçu Rayon Polis İdarəsinin müstəntiqi Qoşqar Əliyev tərəfindən qanunsuz şəkildə həbs edildim. Onu da deyim ki, bu özbaşınalığa Sabunçu rayon prokuroru Ceyhun Şirinov son qoydu və məni dərhal sərbəst buraxdırdı.

İlahə Abbasova mənim istifadəmdə olan nömrəyə zənglər edərək deyir ki, “qılıncımın dal da kəsir, qabağı da”, səni həbs etdirəcəyəm, mənim sözüm hər yerdə keçər, bir çox rayon məhkəmələrinin sədrlərindən çox nüfuzum var, mənlə hər adam baş-başa gələ bilməz. Deyir ki, mənə yalnız prezident göstəriş verə bilər, ona da sənin gücün çatmaz".

**Ç.Xəlilzadə deyir ki, keçmiş baldızının sayəsində məhkəmələrin icraatında olan bütün işləri uduzur:** “Baldızımın xüsusi canfəşanlığı ilə mənə qarşı əmlak bölgüsü iddiası qaldırıldı, icra işi açaraq guya məbləği qərəzli şəkildə ödəmədiyim üçün məni inzibati qaydada həbs etdilər. Evimdə rahat yata bilmirəm, səksəkə içindəyəm. Gözləyirəm ki, hər dəqiqə məni aparıb başıma istənilən bəlanı gətirə bilərlər. Əgər bu vəziyyət bir az da davam etsə, sonumun necə olacağı bilinmir. Məni uşaqlarımla görüşməyə qoymurlar, onlara yalandan deyirlər ki, atanız ölüb”.

**Şikayətçinin sözlərinə görə, ona qarşı saxta sənədlərlə (kserosurətlə) Nəsimi Rayon Məhkəməsində iddia qaldırılıb:** “Həmin məhkəmənin hakimi Elman Kərimli prosesdən öncə mənə açıq şəkildə dedi ki, tapşırıq var, onsuz da məhkəməni uduzacaqsan. Elə də oldu. Məhkəmədə sənədlərin orijinalını tələb etdim, heç kim sözümü eşitmədi. Ayrıca protokola da demədiyim sözlər yazılmış və mənim əvəzimə imzalanmışdı. Deyilənə görə, məhkəməyə verilən sənəd 46 saylı notariusda təsdiq olunmuşdu. Həmin notariusdan rəsmi şəkildə arayış aldım ki, orada mənim adıma heç bir sənəd təsdiqlənməyib. Həmin sənədi Apelyasiya Məhkəməsinə təqdim etdim. Fikirləşdim ki, saxta sənədlə rayon məhkəməsinin özbaşınalığının qarşısını alar. Ama Apelyasiya Məhkəməsində, ardınca Ali Məhkəmədəki prosesləri eyni şəkildə uduzdum. Hər iki instansiyada mənə və vəkillərimə açıq-aydın dedilər ki, bu iş sifarişlidir.

İş icra şöbəsinə gəldi. İcra şöbəsində mənim boynuma qoyulan 50 min dolların 10 minini gətirəndə icra şöbəsinin rəisi və əməkdaşlarından xahiş etdim ki, qalan məbləği hissə-hissə ödəyim. Etiraz etdilər. Şöbədən çıxmağa imkan vermədilər. Hakim Elman İsayev barəmdə 15 sutka inzibati qaydada həbs qərarı çıxardı. Dörd gündən sonra Apelyasiya Məhkəməsinə verdiyim şikayət qəbul olundu və həmin qərar əsassız və qondarma olduğu üçün azad olundum.

Cəza yerindən çıxdığım an telefonumu açanda icra şöbəsinin əməkdaşı Ələddin Hüseynov zəng vurub dedi ki, səni bir həftəyə yenə tutduracam, pulun ödənib-ödənilməməsinin fərqi yoxdur".

**Bu hadisələrdən də əvvəl bizneslə məşğul olduğunu deyən Ç.Xəlilzadə maddi imkanının da yüksək olduğunu bildirdi:** “O vaxt dostum və həmkarım olan Vüsal Əzizova notariat qaydada verdiyim 34 min manatı geri almaq çalışmasında idim. Yalnız məhkəməyə rəsmi notariat sənədini təqdim etməyimə baxmayaraq həmin hakimdən - Elman Kərimlidən başlayaraq mənfi qərarlar alıram. Artıq iki ildir ki, Apelyasiya Məhkəməsi ilə Ali Məhkəmənin arasında qalmışam. Vüsal mənə dedi ki, ”baldızın sağ olsun, məni tapşırıb, pulunu nuşcanlıqla yeyəcəm". O, bunu deməklə mənə başa salırdı ki, heç vaxt bu işi uda bilməyəcəm. Bu olay da onu göstərir ki, keçmiş həyat yoldaşımın bacısı İlahə Abbasova məqsədinə çatır. Hazırda alacaqlarımı toplamağa, işləyib pul qazanmağa və saxta sənədlə məhkəmələrin qanunsuz qərarlarını icra edə bilməyim üçün süni şəkildə şərait yaradılıb. Məqsəd isə məni tutdurmaq, içəridə tapşırıb öldürtdürməkdir. 9 dil bilirəm, riyaziyyat üzrə fəlsəfə doktoruyam. Uzun illər Türkiyədə yaşamışam, orada dərs deyirdim. Öz bilik və bacarığımı Azərbaycanda istifadə etmək üçün vətənə qayıtmışam. Məni müflis vəziyyətə gətiriblər. Hazırda işsiz kimi müvafiq qurumlarda qeydiyyatdayam.

Anam şəkərli diabet xəstəsidir. Türkiyədə yaşayır. Mənim ölkədən giriş-çıxısıma məhkəmə qaydasında sifarişlə qadağa qoyulub. Heç yana gedə bilmirəm. Əgər mənə köməklik olmasa, vətəndaşlıqdan imtina etmək məcburiyyətində qalacağam".

❑ E.HÜSEYNOV

YENİ MÜSAVAT
N 170 (6198) 6 avqust 2015



# Hansı məmurlara "qırmızı kart" veriləcək?

# Nazirlər təlaşda: "kadr əməliyyatının" sirri

## Prezident nazirlərə reputasiyası korlanmış, adları rüşvət və korrupsiya və digər qalmaqallarda hallanan adamlarını "təmizləməyi" tapşırıb; həm Fazil Məmmədov, həm də Ziya Məmmədov ən yaxın adamlarını işdən çıxarırlar; amma bu proses əks nəticə də verə bilər...

**Son günlər iki nazirlikdə başlamış kadr dəyişiklikləri ölkə gündəminin əsas müzakirə mövzularından birinə çevrilib. Prezident İlham Əliyevin son üç ayda nazirlərin iştirakı ilə keçirdiyi müşavirələrdə bir neçə dəfə hakimiyyət komandasındakı ayrı-ayrı məmurların özbaşınalığından, dövlət əmlakının mənimsənilməsindən sərt danışması narazılığın daha çox olduğu sahə nazirlərini ciddi narahat edib.**

Xəbərlərə görə, qısa müddətli məzuniyyət götürməzdən öncə dövlət başçısı bəzi nazirlərə son xəbərdarlıq edib. Onlara işlərində dönüş yaratmaq, məsul olduqları sahələrdə büdcə vəsaitlərinin az qala hər manatına cavabdehlik və xalqı hakimiyyətdən incik salmamaq tapşırığı verilib.

Mənbəmiz iddia edib ki, nazirlər ən qısa müddətdə reputasiyası korlanmış, adları rüşvət, korrupsiya və digər qalmaqallarda hallanan adamlarını "təmizləməlidirlər". "Bu, nazirlərə "qırmızı" kart veriləcəyi, yeni vəzifədən qovulacaqları ilə bağlı son xəbərdarlıq hesab oluna bilər" - deyə, qaynağımız deyib.

Beləliklə, son üç gündə həm Vergilər, həm də Nəqliyyat nazirliklərində başlamış "təmizləmə əməliyyatı"nın əsl səbəbinin prezidentin xəbərdarlığı ilə bağlı olduğu üzə çıxır.

Məlumdur ki, iyul müşavirəsində ən sərt tənqidə məruz qalan Vergilər Nazirliyi oldu. Prezident "Vergilər Nazirliyi Bakıda və rayonlarda haqq qoyur, pay istəyir, "kışalıq" edirlər. Bu, dözülməz haldır, buna son qoyulmalıdır" - deyərək sahibkarlara şəxsən ona müraciət etmələrini istəmişdi. Təsadüfi deyil ki, Fazil Məmmədov məhz prezidentin tənqid etdiyi Vergilər Nazirliyinin ərazi vergilər departamentlərində və idarələrində kadr dəyişikliyi aparıb. Nazirin əmri ilə Bakı Vergilər Departamentinin bəzi rəhbər vəzifəli şəxsləri və 6 saylı Ərazi Vergilər İdarəsinin rəisi tutduqları vəzifələrdən azad edilərək sərəncama göndərilib.

Vergilər naziri müavinlərini nazirlik idarələrə göndərərək sahibkarlıq subyektlərinin fəaliyyətinə qanunsuz müdaxilələrin yolverilməzliyinin, vətəndaş müraciətlərinin mövcud qanunvericiliyinin tələblərinə uyğun olaraq hərtərəfli araşdırılmasının, vergi orqanı əməkdaşlarının etik-davranış məsələlərinin xüsusi diqqətdə saxlanılmasını tapşırıb. Nöqsanlara yol vermiş vergi xidməti orqanı əməkdaşları barədə ciddi tədbirlər görüləcəyi bir daha vergi orqanı əməkdaşlarının nəzərinə çatdırılıb.

Məlumatlara görə, xüsusilə Bakı Vergilər Departamentində vəzifədən çıxarılanlar uzun illərdir ki, nazirin ən yaxın adamları kimi tanınanlardır və F.Məmmədovun iradəsindən kənar heç bir qanunsuz iş görə bilməzdilər. Nazirlikdəki bir mənbə deyib ki,



Hüseyn Salamov

F.Məmmədov "öz adamlarını" qurban verməklə kadr dəyişikliklərində səmimi olduğunu və buraxılan səhvlərdən nəticə çıxardığını sübut etmək üçün bu addımı atıb. Amma bu məcburi dəyişikliyin F.Məmmədov üçün çox təhlükəli olduğu da deyilir. Çünki yaxın vaxtlarda sərəncama göndərilənlər yeni vəzifə təyinatı almasalar, nazir haqda kompromatları mediaya ötürə bilərlər. Hər halda, F.Məmmədov indilikdə yalnız özünü düşünür və xilas olmaq üçün ən yaxın adamlarını belə qurban verməyə hazır görünür.

Nəqliyyat naziri Ziya Məmmədov da rəhbərlik etdiyi Nəqliyyat Nazirliyində "qılıncını siyirib". Avqust ayının 3-də nazirlikdə baş tutan iclasdan sonra qurumda dəyişikliklərə start verilib. İclasda Avropa Oyunları ərəfəsində şəhərdaxili sərnişindaşımada qeydə alınan bir çox qüsurlar müzakirə olunub. Əsasən sərnişin avtobuslarının iştirakı ilə qeydə alınan qəzalar müzakirə olunub. Müzakirədən sonra Nəqliyyat Nazirliyinin bir çox vəzifəli işçiləri buraxdıqları qüsurlara görə işdən çıxarılıb. Nazirliyin tərkibində Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəisi Hüseyn Salamov və 8 nəfər əməkdaş işdən qovulublar.

Qeyd edək ki, həmin görüşdə Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəis vəzifəsinə Elnur Abdullayev təyin olunub. İclasda sərnişindaşımada mövcud problemlər müzakirə olunub və işin keyfiyyətini yüksəltmək üçün lazımi qərarlar qəbul olunub. İşdən çıxarılanlar arasında Ziya Məmmədovun qardaşı Loğman Məmmədovun oğlu, "Atletlər kəndi"ndəki qəzaya görə istintaqa cəlb edilən Rövşən Məmmədovun olduğu deyilsə də, hələ ki bu xəbər rəsmi təsdiqini tapmayıb. Maraqlıdır ki, həmin müşavirədə Z.Məmmədovun iştirak etmədiyi iddia olunur.

Əldə etdiyimiz başqa bir bilgiyə görə, Hüseyn Salamov Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəisi vəzifəsinə 2014-cü ilin yanvarında təyin edilib. Çingiz Baxışev vəzifədən azad edilərək nəqliyyat nazirinin müşaviri təyin edildikdən sonra H.Salamov onun yerini tutub. Bu təyinata qədər o, nazirliyin beynəlxalq əlaqələr şöbəsində müdir müavini postunda çalışıb.

Hüseyn Salamov da Z.Məmmədova yaxın kadrlardan sayılırdı və onu kollektivə şəxsən nazirin özü təqdim etmişdi. Amma Avropa Oyunlarında H.Salamovun məsul olduğu sahədə ciddi nöqsanlar aşkarlandı, "Atletlər kəndi"ndə baş verən qəza isə nəinki onu, hətta naziri də ciddi qınağa gətirdi. Z.Məmmədov hələ də bu qəzanın hesabını verə bilməyib və belə görünür ki, o da özünü sığortalamaq üçün ən yaxın kadrlarından bir neçəsini işdən çıxarmaq zorunda qalıb.

Nazirliklərdəki iş prinsiplərindən xəbərdar olanların bildirdiyinə görə, bu kimi sərt qərarlar bütün strukturların işinə təsir edir, "vurulmuş" kadrların digər məsul vəzifədəki adamları nazirə qarşı müqavimət göstərmək üçün birləşirlər, hətta işi sabotaj belə edirlər. Bu baxımdan Nəqliyyat Nazirliyi kimi "xalqla işləyən" bir mürəkkəb strukturlarda başlamış kadr dəyişiklikləri Ziya Məmmədovun xeyrinə deyil.

Qeyd edək ki, "Yeni Müsavat" bir müddət öncə avqustun 5-dən sonra kadr dəyişikliyi ilə bağlı qərarlara start veriləcəyini xəbər vermişdi. Məlumatlarda deyilirdi ki, iqtidar komandası yenidən formalaşdırılacaq, hətta könüllü getmək istəməyən iri korrupsiyaçılar həbs ediləcək. İddia var ki, hakimiyyət məmur-oliqarxların vurulması, sələhiyyətsizləşdirilmək üçün kadr islahatlarını rayonların icra başçılarından başlamaq niyyətindədir.

❑ **"Yeni Müsavat"**

# Manat təhlükəsi - hökumət bu ili yola verməyə çalışsa da...



## Ekspertlər bildirirlər ki, son bir ayda olan vəziyyət manatın əleyhinə işləyir, milli valyuta üçün ciddi təhlükə var...

**Manatın ucuzlaşacağı barədə ehtimallar yenidən güclənməkdədir. Ekspertlər bildirirlər ki, tezliklə növbəti devalvasiyanı gözləmək daha məntiqlidir. Ekspert Vüqar Bayramovun sözlərinə görə, bu həftənin ilk üç günündə manatın dollara nisbətən məzənnəsi müqayisəli şəkildə aşağı düşüb: "Belə ki, əgər Mərkəz Bank dolların manata kursunu avqustun 3-də 1,0493 müəyyənləşdirmişdirsə növbəti günlərdə rəsmi məzənnə 1,0495 və 1,0499 oldu.**

Amma manatın dollara nisbətən zəifləməsi heç də son günlər neftin qiymətinin aşağı düşməsi deyil, avronun dünya bazarında mövqelərinin sarsılması ilə bağlıdır. Belə ki, valyuta səbətində avronun payının artması köhnə qitə pulunun kursunun manata təsir etməsinə səbəb olur. Dollara nisbətən zəifləyən avro manatla müqayisədə də dəyər itirib. Son üç gündə dollara nisbətən dəyər itirən manat avroya münasibətdə güclənib. Belə ki, avqustun 3-də 1 avro almaq üçün 1,1524 manat ödəmək lazım idisə, növbəti günlərdə uyğun olaraq rəsmi məzənnə 1,1482 və 1,405 oldu. Buna görə də manatın məzənnəsinin son günlərdəki azalmasını neftin dünya bazar qiymətinin dəyişməsi ilə əlaqələndirməməlidir. Təbii ki, neftin dünya bazar qiyməti ölkəmiz üçün vacibdir. Ancaq onun monetar təsirləri çox qısa deyil, orta müddətli dövrdə özünü göstərir. O baxımdan da əgər yaxın günlərdə avronun məzənnəsi dollara nisbətən möhkəmlənərsə, o zaman milli valyutamız da ABŞ pulu qarşısında dəyər qazanacaq. Avronun zəifləməsi davam etdiyi halda isə dollar yenidən Azərbaycan bazarında nisbi möhkəmlənəcək. Avrozonadakı mövcud durum isə heç də Avropa pulu üçün nikbinlik vəd etmir".

**Ekspert Samir Əliyev qeyd edib ki, Azərbaycanda yenidən devalvasiya ola bilər:** "Ümumiyyətlə, devalvasiya məsələsi gündəmdən çıxmayıb, bu gün də real olaraq qalır".

**Onun sözlərinə görə, devalvasiyanın nə zaman olacağını dəqiq demək bir qədər çətindir:** "Azərbaycan manatı iki amildən asılıdır. Bunlardan biri neftdir. Ötən gün neftin qiyməti kəskin şəkildə aşağı düşdü. Halbuki bir ay öncə neftin qiyməti 60 dollardan yuxarı idi. Neft ucuzlaşdıqca, manata təzyiq artır.

Son bir ayda olan vəziyyət manatın əleyhinə işləyir. Mart ayından başlayaraq iyula kimi neftin qiyməti 60-70 dollar arasında dəyişirdi. Bu, manat üçün haradasa sabitlik təmin edirdi. Manat üçün narahatlıq doğuran ikinci amil kapital axınıdır. Rusiya, Türkiyə, Yunanıstan kimi ölkələrdə daşınmaz əmlakın ucuzlaşması səbəbindən insanlar pullarını bu ölkələrə yönəldirlər və orada daşınmaz əmlak alırlar. Bu vasitə ilə kapital ölkədən çıxır, bir də biznesmenlər yoxlamaların fonunda öz kapitalını ölkədən çıxarırlar. Odur ki, ölkənin valyuta ehtiyatında azalma hiss olunur. Bu baxımdan neftin qiymətinin ucuzlaşması və kapital axını milli valyuta üçün əsas təhlükədir".

**S.Əliyev aznew.az-a açıqlamasında qeyd edib ki, dövlət ilin sonuna kimi ikinci devalvasiyanın olmaması üçün çalışır:** "Kapital axını və neftin qiyməti ucuzlaşmaqda davam edərsə, devalvasiyaya gedilə bilər. Vəziyyət çətinləşərsə, yumşaq devalvasiya baş tutacaq. Vəziyyət lap pisləşərsə, kəskin devalvasiya gedə bilər. Hansı ki, biz fevral ayında bunun şahidi olduq. Əgər kəskin devalvasiya olarsa, bu, 15-20 faiz gözlənilir. Kapital axını və neftin qiyməti manatın əleyhinə işləməzsə, manat ilin sonuna kimi indiki səviyyədə qalacaq. Əgər sadalanan amillərdən biri güclənərsə, bu halda hökumət devalvasiyaya getmək məcburiyyətində qalacaq". Qeyd edək ki, əksər ekspertlər ilin sonuna 15 faizədək devalvasiya proqnozlaşdırırlar.

❑ **RÖYA**

**İki gün öncə tanınmış publisist, araşdırmaçı, yazıçı Əlisa Nicat "Hürriyət" qəzetinin saytında "Rauf Arifoğlu yeni ampluasında" başlıqlı yazı dərc etdirib.**

**Yazıda bu cür fikirlər var: "Heç vaxt görməsək də, çoxdan tanıdığım və bir-birimizə rəğbət hiss etdiyim "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu orden alandan sonra iddia edir ki, ona gələn təbriklərin sayı minlərlədir".**



Xalid KAZIMLI

# Əlisa müəllimin yanlışından nicat uman Əli Kərimli...

**1-cü düzəliş:** Qəzetimizin baş redaktoru heç bir orden-medal almayıb, onun aldığı "Əməkdar jurnalist" fəxri adıdır və o adı bir döş nişanı müşayiət edir. Həm də R.Arifoğlu həmin adı Milli Mətbuat Günü münasibəti ilə alan 140 jurnalistdən biridir.

**Əlisa müəllim yazır:** "Maraqlısı orasıdır ki, Raufun orden taxıldıqdan sonra "prezidentlə dostluq əlaqələrimiz başlayır" - sözlərinə cavab olaraq İlham Əliyevin - "Təmənnalı dostluq?" atmacasına Rauf heç nə demədən həddsiz acı bir həb kimi uddu".

**2-cü düzəliş:** Həmin görüşdə prezidentlə baş redaktor arasında belə bir dialoq olmayıb. Əlisa müəllim yanılır. Sözügedən dialoq "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı ilə İlham Əliyev arasında olub və bu dialoq heç də "həddsiz acı bir həb kimi" yox, təbəssümlə müşayiət olunan mükaliməə olub. Həmin gün bu barədə ölkədəki qəzet və saytların hamısı yazmışdı.

**Tanınmış yazardan daha bir sitat:** "Beləliklə, müxalifətin ən möhkəm nümayəndələrindən biri öz 30 illik səngərindən çıxıb qarşı tərəfin səngərinə keçərək, dünənki silahdaşlarına atəş açmağa başladı".

**3-cü düzəliş:** İmzasına hörmət edən publisist "30 illik səngərindən çıxıb qarşı tərəfin səngərinə keçərək, dünənki silahdaşlarına atəş açan" müxalifətçi-qəzetçinin "giliz"lərini göstərməliydi, heç olmasa həmin yazıların elekton bağlantılarını və ya başlıqlarını verməliydi. Bunların heç biri yoxdur. "Yeni Müsavat" qəzeti sözü gedən "orden"dən əvvəl necə və nə yazırdısa, elə yazır.

**Əlisa müəllim qəzetçilərin də qaydına qalır:** "İndi ən çətin və ən ağır vəziyyət isə "Yeni Müsavat"ın iki istedadlı və sarsılmaz, əqidəli əməkdaşının vəziyyətidir. Başqa heç yerdən gəlirləri olmayan bu ailəli adamlar neyləyəcəklərini bilmirlər. Axı ya Raufun dalınca gedib onun hərəkətlərini təkrar etməli, ya da çıxıb harasa getməlidirlər. Getməyə isə yer yoxdur. Ailə də hər gün yemək istəyir".

**4-cü düzəliş:** Qəzetimizin istedadlı, sarsılmaz, əqidəli əməkdaşları heç də iki deyil. Yaxşı olardı ki, Əlisa müəllim onların adını çəkəydi və yazdıqlarına baxaydı. Hər kəs görə bilər ki, elə bir sıxıntı yoxdur, kim nə istəyirsə, yaza bilir və "çıxıb harasa getmə"lərini şərtləndirən situasiya yoxdur.

**Görkəmli publisistin proqnozu belədir:** "Raufun bu dəyişikliyi sözsüz ki, "Yeni Müsavat" qəzetinin alıcılarını da qəzetdən uzaqlaşdıracaq. Axı bundan sonra qəzetdə nə yaza biləcəklər? O şeyləri ki, onları "Azərbaycan", "Yeni Azərbaycan", "Respublika" və başqa onlarla qəzetlər daha açıq və aydın yazırlar".

**5-ci düzəliş:** Əlhəmdülillah, hələ ki elə bir təhlükə yoxdur. "Ordenlə təltif"dən sonra "Yeni Müsavat" qəzetinin tirajı azalmayıb, musavat.com saytının ziyarətçiləri isə yay günləri olmasına baxmayaraq artmaqdadır. "Yeni Müsavat" isə adları çəkilən qəzetlərdən yerlə göy qədər fərqlənməsində davam edir.

**Müəlimin son mülahizəsi:** "Əvvəlki kimi yazılar dərc etmək isə təhlükəli və gülməli olar. Orden alırsan, pul alırsan, sonra da tənqid edib pisləyirsən?"

**6-cı düzəliş:** Bax, əsas məsələ də budur, hakimiyyətdən "orden" alasan və tənqidi jurnalistika mövqeyini tərk etməyəsən.

Kim belə bir şeyin olduğuna inanmırsa, qəzet və saytımızı izləməkdə davam eləsin. Özü hər şeyi görəcək.

Ona qalsa, Əlisa Nicatın bu yanlışlıqlarla dolu yazısını sevə-sevə təkrar dərc edən "Azadlıq" qəzeti də hakimiyyətdən (KİV DDF-dən) külli miqdarda pul (307 min 400 manat) əməkdaşlarına iki mənzil (birbaşa Prezidentin fərmanı ilə) alıb və tənqid yazmaqda davam edir. O necə olur?

İndi gələk bu məsələnin üstünə, tanınmış müəllifin yazısındakı bariz xətaları görə-görə onu dərc edən "Azadlıq" qəzetinin bu hərəkətindən bəhs edək.

Yazının əsas sütunu olan mülahizə İlham Əliyevlə Akif Aşırlının arasında olan dialoqun Rauf Arifoğlunun adına çıxılmasıdır və bu söhbətin əslini media mühitində hər kəs bilir. Bunu bilə-bilə həmin yazını dərc etmək açıq qərəz, düşmənçilik nümunəsidir.

Hətta redaksiyaya düzəliş xarakterli zəng olunandan sonra da həmin yazını saytın arxivində saxlamaq isə yosunlamış qərəzin, maniakal kin-küdurətin göstəricisidir.

Tutaq ki, Əlisa müəllim ahıl adamdır, yaddaşı o qədər də iti deyil, siz necə, 15-20 gün öncə olub-bitmiş, bütün medianın dilinə düşmüş hadisəni nə tez unutdunuz? Hətta yadınıza salandan sonra da xatırlamadınızmı?

Bu qədər yanlışlığın, yalançılığın onsuz da yaman gündə olan reputasiyanıza zərbə vuracağını düşünmürsünüzmü? Oxucularınız, ictimaiyyət deməzmi ki, sizin obyektivliyiniz bu qədərdir.

Hiddət, qəzəb, qərəz qəzetinizin faktiki sahibi və baş redaktoru olan Əli Kərimlinin gözünü o qədər tutub ki, yanlışınızı düzəltməyinəz belə imkan vermir. Elədirsə, davam edin. Bu, bizə uyar. Təki bütün arqumentləriniz elə bu cür yalan-yanlış olsun. Hesab edin ki, həmin dialoq Əliyevlə Arifoğlu arasında olub və baş redaktor doğrudan da orden alıb.

# Arif Hacılının müavini Sərdar Cəlaloğluna cavab verdi

## Müsavat funksionerindən ADP sədrinin İsa Qəmbərlə bağlı dediklərinə münasibət: "Ona bu jestinə görə təşəkkür edirik"

**"Görsək ki, İsa Qəmbər hansısa bir dairədən namizədliyini irəli sürüb, çalışacağıq ki, həmin dairədən namizəd irəli sürməyək. O, artıq 20 ildir seçkilərdə iştirak edir".**

Bunu Azərbaycan Demokrat Partiyasının (ADP) sədri Sərdar Cəlaloğlu 2015-ci il parlament seçkilərində eyni dairədən namizədliyini irəli sürəcək müxalifət partiyalarının nümayəndələrinin bir-birilərinə güzəşt edib-etməyəcəyinə münasibət bildirərkən deyib.

Sərdar Cəlaloğlunun bu jesti Müsavat Partiyası tərəfindən müsbət qarşılanıb.

**Müsavat başqanının müavini Səxavət Soltanlı musavat.com-a açıqlamasında Sərdar Cəlaloğluna bu jestinə görə təşəkkür edib.**

"İstənilən halda reallıqları qəbul edib, qiymətləndirməyi bacaran şəxslərə təşəkkür etmək lazımdır. Bu münasibətinə görə Sərdar bəyə də təşəkkür edirik. İndi ən çətin olan məsələlərdən biri də insanları qiymətləndirməkdir. Odur ki, sağ olsun. Müsavat belə davranış göstərən hər kəsə təşəkkür deyir"- deyə başqan müavini qeyd edib.

**S.Soltanlı digər partiyalara qarşı edilə biləcək güzəştlərdən danışarkən bildirdi ki, bunun üçün dairələr üzrə namizədlərin müəyyənləşməsini gözləmək lazımdır:** "Namizədlər və dairələrlə bağlı məsələlərə Müsavatın namizədləri müəyyənləşib, partiya Məclisində təsdiq edildikdən və digər namizədlərin hakimiyyətə, seçkiyə münasibəti nəzərdən keçirildikdən, şansları qiymətləndirildikdən sonra güzəşt məsələləri müzakirə oluna bilər. Bu və buna oxşar bütün məsələlər partiyada kollektiv şəkildə, səs verme və ya konsensusla həll edilir. Dediyim kimi, xalqın maraqlarından çıxış edən, şanslı olan namizədlərin dəstəklənməsi, hətta Müsavatın namizədi kimi seçkilərə qatılması mümkündür. Xalqın maraqlarına xidmət edən digər şanslı siyasi partiya rəhbərləri ilə bağlı qərar da müzakirələrdən sonra hər kəsə, ilk olaraq mətbuata aydın olacaq".

Müsavat başqanının digər müavini Elman Fəttah isə deyib ki, partiyaların bir-birinə güzəşti haqda namizədlər dəqiqləşdikdən sonra danışmaq olar.

E.Fəttahın sözlərinə görə, Müsavat Partiyasının bu istiqamətdə atacağı addım ümum düşərgə maraqlarına uyğun olacaq: "Hələ kimin hansı seçki dairəsindən namizəd olacağı qətiləşməyib. Qeydiyyat mərhələsi başa çatdıqdan sonra güzəştlərdən danışmaq olar. Müsavat olaraq hər zaman hakimiyyətə qarşı prinsipial siyasi mövqedə olan nüfuzlu şəxslərin namizəd olacağı dairələrdə seçki haqda qərarlarımızın ümum düşərgə maraqlarına uyğun olmasına çalışmışıq. Bu seçkilərdə də eyni yanaşmanı sərgiləyəcəyik".

❑ İlkin MURADOV

# Yeni seçki bloku yaranır

## ADP, Ümid və adı hələlik açıqlanmayan üçüncü tanınmış partiya arasında bu gün danışıqlar olacaq

**ADP avqustun 5-də Ümid Partiyası ilə birlikdə "Qarabağ" bloku olaraq toplantı keçirib və parlament seçkilərində vahid bir blok şəklində iştirak etmək barədə razılığa gəlinib. Bu barədə ADP sədri Sərdar Cəlaloğlu "Yeni Müsavat"a açıqlamasında məlumat verib. Onun sözlərinə görə, yaradılacaq yeni bloka üçüncü bir partiya da qoşulmaq istəyir.**

Bu məsələ avqustun 6-da saat 12-də həmin partiyanın rəhbəri ilə birlikdə müzakirə ediləcək. Ümumi prinsipial razılıqlar əldə ediləcəksə və əgər həmin partiya da qoşulacaqsa, blokun adı "Qarabağ" blokundan fərqli ad olacaq və yeni blokun rəsmi təsisçisi Ümid Partiyası, ADP və həmin adını hələ çəkməyi məqsədəuyğun saymadığım partiya olacaq. Partiyanın adı da razılıq əldə olunduqdan sonra ictimaiyyətə açıqlanacaq: "125-lər" isə həmin blokun tərkibində öz namizədlərini verib seçkilərdə iştirak eləyə biləcək. Bu barədə də bizim prinsipial razılığımız var".

S.Cəlaloğlu son qərar verilmədiyindən adını hələ açıqlamadığı üçüncü partiyanın tanınmış müxalifət partiyalarından biri olduğunu dedi.

ADP sədri onu da vurğuladı ki, əgər həmin partiya ilə razılıq əldə olunmayacaqsa belə, ADP ilə Ümid Partiyasının parlament seçkilərində birlikdə blok şəklində iştirak etmək qərarı qüvvədə qalır. Hər iki partiya seçkiyə "Qarabağ" bloku olaraq gedəcək.

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 170 (6198) 6 avqust 2015

**Dünya bazarında neftin qiymətində bir müddət sabitlik yaransa da, son günlərdə qara qızıl yenidən dəyər itirməyə başlayıb. Bu ilin yanvar ayından bəri ilk dəfə olaraq neft 50 dollardan aşağı düşüb. Avqustun 4-də gecə saatlarında Brent markalı xammal birdən-birə 4%-dən çox dəyərini itirərək 49 dollara enib. Avqustun 5-də isə WTI neftinin qiyməti 1 barelə görə 0,20 dollar artaraq 45,94 dollar təşkil edib, Brent markalı neftin 1 barelinin dəyəri isə 0,23 dollar artaraq 50,22 dollar olub.**

# Neftin ucuzlaşmasında ABŞ-İran amilinin rolu varmı...

Dünya bazarında neftin yenidən kəskin dəyər itirməsi mətbuatda müzakirələrə yol açıb. Qara qızılın ucuzlaşmaqda davam edəcəyi gözlənilərkən, bu səbəb olan iqtisadi-siyasi amillər də gündəmə gəlməkdədir.

Əgər bir zamanlar neftin qiyməti dünyada gedən siyasi proseslərdən, münaqişələrdən asılı olaraq artırdısa, indi müxtəlif səbəblərdən ucuzlaşır. Xüsusən də ABŞ-İran münasibətlərinin kəskinləşdiyi dövrlərdə neftin qiymətinin hər zaman 100 dolların üzərində olması müşahidə edilirdi. Bəs görəsən, indi həmin prosesin əksi olaraq ABŞ-İran münasibətlərindəki yumşalma neftin ucuzlaşmasına təsir edən amillər sırasındadırmı? Başqa sözlə, ABŞ-la İranın barışıq əldə edəcəyi təqdirdə bu, neftin ucuzlaşmasında rol oynayacaqmı?

**"Yeni Müsavat"ın suallarını cavablandıran Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban bildirdi ki, dünya bazarında neftin ucuzlaşmasını təkcə ABŞ-İran münasibətləri ilə çərçivəyə salmaq düzgün olmazdı:** "Çünki bu neft qiymətlərini formalaşdıran ümumi amillərdən biridir. Məsələyə, bir qədər geniş formada baxmaq lazımdır. Hazırda dünya bazarında neftin qiyməti 2005-ci ilin qiymətləri səviyyəsinə enib. Yalnız 2005-ci ildən sonra neftin qiyməti hədsiz sürətlə artmağa başladı və dünyada baş verən iqtisadi böhranlar, neftin uzun müddət 100 dollardan yuxarı olması bir "sabun köpüyü" kimi qiymətləndirilirdi. 2014-cü ildən başlayaraq neftin kəskin ucuzlaşmaya doğru getməsi həmin o köpüyün bazardan yığışdırılmasıdır. Əslində 2011-2013-cü illərdə neftin qiyməti 100 dollardan yuxarı olsa da, neftin real bazar qiyməti 80 dollardan yuxarı olmamalı idi. Ancaq uzun müddət neftin orta qiyməti 111-113 dollar olub, hətta bəzən daha artıq - 125-140 dollara da yüksəlib".

**Ekspert vurğuladı ki, hazırda neftin qiymətinin kəskin aşağı düşməsi dünyada gedən iqtisadi proseslərlə daha çox bağlıdır, nəinki İran-ABŞ münasibətləri və ya Qərb Rusiya münasibətləri ilə:** "Hazırda iqtisadi amillərin təsiri daha çoxdur, nəinki siyasi amillərin. Əvvəllər hər hansı bir münaqişə dünya birjalarında neftin qiymətinə birbaşa təsir edirdi. İndi isə hətta lokal müharibələr belə neftin qiymətinə hər hansı təsir göstərə bilmir. Bu gün Yaxış Şərqdə az qala müharibədir, ancaq neftin qiyməti düşür. Bu o deməkdir ki, artıq siyasət neftin qiymətinin formalaşmasında arxa plana keçir. İndi daha çox iqtisadi amillər rol oynamağa başlayır.

Hazırda dünya bazarında neftin ucuzlaşmasına təsir edən iqtisadi amillər sırasında ABŞ-ın neft hasilatını artırması əsas rol oynayır. Artıq üçüncü ildir ki, ABŞ neft hasilatını artırır və nəticədə idxalı minimuma endirir. Əvvəllər ABŞ-a satılan neft isə dünyanın digər bazarlarına yönəlir. Orada da tələb-təklif münasibətlərində neft ucuzlaşmağa başlayır.

Başqa bir səbəb odur ki, Avropa və Çin kimi nəhəng bazarlarda iqtisadi aktivlik get-gedə aşağı düşür. Yəni neftə olan tələbat azalır. Nəticədə neftin qiyməti real bazar tendensiyasına qayıdır. Bu gün neftin qiyməti 50 dollardırsa, bir müddətdən sonra 45 dollara belə düşəcəksə və bazar bununla özünü tənzimləyirsə, burada heç bir problem yaşanmır. Problem o ölkələr üçün olur ki, həmin ölkələrin iqtisadiyyatı monopol iqtisadiyyatdır və bir xammaldan, neftdən asılıdır. Həmin ölkələr də gözləyir ki, həmin xammalın qiyməti artsın".

**Neftin qiyməti ilə bağlı uzaq və yaxın dövr üçün səslənən proqnozlara gəlincə, İlham Şaban bildirdi ki, dünyada neftin qiyməti ilə bağlı beyin mərkəzlərinin, maliyyə institutlarının verdiyi proqnozlar odur ki, yaxın 5 il və 10 il üçün tədricən neftin qiyməti qalxacaq:** "2020-ci il üçün neftin qiyməti 71 dollar, 2025-ci il üçün isə 89 dollar proqnozlaşdırılır. Ancaq inflyasiyanı nəzərə alaraq neft göstəriləln qiymətdən 8 dollara qədər ucuz da ola bilər. Daha yaxın gələcək üçün elə də nikbin proqnozlar yoxdur. 2015-ci il üçün orta qiymət 57 dollardır. 2016-cı il üçün Brent markalı neftin orta qiyməti 61 dollardır, yəni 4 dollar arta bilər, 2017-ci il üçün 62,5 dollardır. Yaxın illər üçün qiymətlər belə proqnozlaşdırılır. Ancaq müşahidələr göstərəcək ki, bu proqnozlar özünü necə doğruldacaq. Çünki 2015-ci ilin sonundan İran nefti bazara çıxacaq və təxminən 3 ay vaxt lazım gələcək ki, bazar buna uyğunlaşsın. 2016-cı ilin birinci rübünün sonlarında artıq bazar İran neftinə uyğunlaşacaq və bazar İran neftini həzm edəcək. Məhz bundan sonra baxmaq olar ki, qiymətlər hansı istiqamətdə gedəcək".

**Siyasi proseslərin neftin hazırkı qiymətinə təsirindən danışan politoloq Elxan Şahinoğlu da ABŞ- İran münasibətlərində müəyyən yumşalmanın olduğunu, lakin bunun qara qızılın ucuzlaşmasına səbəb olan yeganə amil olmadığını bildirdi:** "Düzdür, ABŞ-İran münsaibətlərində müəyyən qədər yumşalma olsa da, hələ ki tam olaraq müsbət münasibətlərin formalaşmasından söhbət gedə bilməz. Ancaq fakt bundan ibarətdir ki, birincisi, sanksiyalar ortadan qaldırılacaq, ikincisi, İran daha çox neft istehsalına başlayacaq, üçüncüsü isə Qərbin iri neft şirkətləri İranda neft yataqlarının qazıntısına başlayacaqlar. Hələ ki bu işlər başlamadan bu istiqamətdə şayiələrin, xəbərlərin dolaşması özü də bəzən neftin qiymətinə təsir edir. Bu aydın məsələdir ki, İran neft istehsalını artırıb, bəzi şirkətlərlə ortaq nedft layihələri reallaşdırmağa başlayandan sonra bu, neftin qiymətinə daha çox təsir edəcək".

**Politoloq bildirdi ki, hazırda neftin qiymətinə təsir edən bir çox siyasi-iqtisadi proseslər də var:** "Bunlardan biri İrana qoyulan sanksiyaların ortadan qaldırılmasıdır, digəri Şimali İraqda çalışmaların artırılmasıdır. Həmçinin Amerikanın neft istehsalını artırması və sıxılmış qazı dünya bazarına çıxarması, eləcə də Qətərin də dünya bazarına sıxılmış qaz ixracını artırması neftin qiymətlərinə təsir edir. Bütün bunlar normal proseslərdir. 3-4 il öncə insanlar neftin 100 dollardan baha satılmasına öyrəşmişdi. Lakin elə illər də olub ki, neft 12-15 dollara qədər enib. Bəzən ən öndə gedən iqtisadçılar belə deyirdilər ki, neftin real bazar qiyməti elə 100 dollardır. Ancaq görürük ki, belə deyil, 60, 50, hətta 40 dollar ola bilər. Səbəblər isə çoxdur. Məsələn, əvvəllər ABŞ nefti alırdısa, indi özü neft istehsal edir. Bu, bazara təsir edən ən güclü amillərdən biridir. Mən yaxın müddətdə neftin qiymətində kəskin artım olacağına inanmıram. Hətta artıq dünyada baş verən müharibələr də neftin qiymətinin artmasına təsir etmir. Vaxt vardı ki, ABŞ və İran arasındakı münasibətlərə dair istənilən xəbər neftin qiymətini artırırdı. O zaman kimsənin ağlına gəlməzdi ki, ABŞ rəsmiləri ilə İran rəsmiləri görüşə bilər. Ancaq indi bu ən yüksək səviyyədə, nazirlər, dövlət katibləri səviyyəsində həyata keçirilir. Bu ondan xəbər verir ki, münasibətlər normallaşıb və ABŞ görür ki, bölgədə İrandan daha böyük siyasi problemlər var. Əvvəl ABŞ-Kuba münasibətləri də gərgin idi, ancaq indi vəziyyət dəyişib. Hətta Kubada ABŞ səfirliyi, ABŞ-da Kuba səfirliyi fəaliyyət göstərir. İstisna deyil ki, Amerika yaxın illərdə İrandakı səfirliyini bərpa edə bilər. Ancaq hələ ki İrandakı siyasi güclər buna hazır deyil və ABŞ-la münasibətlərin tam normallaşmasına razı olmazlar. Ancaq tədricən İran-Qərb münasibətlərinin normallaşması qaçılmazdır. Bu, Azərbaycan üçün də müsbət bir haldır ki, bölgədə gərginlik azalır. Həmçinin ABŞ neft şirkətləri İranda çalışmalara başlasalar, Azərbaycan bu prosesdə körpü rolunu oynaya bilər".



**İlham Şaban: "Əvvəllər hər hansı bir münaqişə dünya birjalarında neftin qiymətinin artmasına səbəb olurdu, indi isə hətta lokal müharibələr təsirsizdir"**



**Elxan Şahinoğlu: "Bəzən ən öndə gedən iqtisadçılar belə deyirdilər ki, neftin real bazar qiyməti elə 100 dollardır"**

❑ **Nərgiz LİFTİYEVA**

# "Neft ilin sonuna hətta 40 dollara qədər düşə bilər"

## Samir Əliyev: "Neftin ucuzlaşmasını şərtləndirən amillər daha çoxdur"



**Dünya bazarlarında neft ucuzlaşmaqda davam edir. Əksər ekspertlərin proqnozları bədbindir. Ekspert Samir Əliyevin sözlərinə görə, neftin qiymətinin aşağı düşməsinə səbəb iki amil olub: "Birincisi, Çin iqtisadiyyatının neqativ duruma gəlməsidir. İqtisadiyyatda səngimələr var artıq. Çin dünyada ABŞ-dan sonra ikinci ən böyük neft istehlak edən ölkədir. Ona görə də Çin iqtisadiyyatında neqativ nəsə baş verməsi mütləq dünya bazarına təsir göstərir. Bu, bir səbəbdir. İkinci səbəb İranla bağlıdır. Ötən həftə İrana qarşı tətbiq edilmiş sanksiyalar aradan qaldırıldı və İran bazara əlavə olaraq gündəlik 1 milyon bareldən çox neft ixrac etməyə hazır olması ilə bağlı bəyanat verdi. Bu da bazara təsir göstərdi və neft ucuzlaşmağa başladı".**

Ekspert gözləntilər barədə də danışıb: "Neftin ucuzlaşmasını şərtləndirən amillər daha çoxdur. İrana tətbiq edilən sanksiyalar götürüldüyündən, bazarda böyük həcmdə neft artıqlığı yaranacaq. Bu da qiymətlərin ucuzlaşmasına gətirib çıxaracaq. Eyni zamanda Rusiya son vaxtlar hasilatı artırır. Digər neft ölkələri Liviya və İraqda da hasilat artımı müşahidə edilir. Bir sözlə, neft artıqlığı yaranır bazarda. Bu, o deməkdir ki, ilin sonuna qədər neftin bahalaşması gözlənilmir. Azından, 70 dollarlıq həddi keçməyəcək. Ola bilsin, hətta ilin sonunda bareli 50-60 dollar arasında dəyişsin, daha aşağı da ola bilər".

Qeyd edək ki, Dünya Bankının neft qiymətlərinə dair son proqnozlarında cari ildə "qara qızılın" orta qiyməti bir barel üçün 57,8 dollar göstərilir. Ekspertlərə görə, Dünya Bankı hələ ki pozitiv ssenaridən çıxış edir. Ucuzlaşma Azərbaycanın gəlirlərinə birbaşa və dolayısı ilə təsir edən amildir. Ekspertlər bildirirlər ki, yeni dövr- ucuz neft dövrü ölkə üçün yaxşı perspektiv vəd etmir. Dünya Bankının və digər maliyyə institutlarının hesabatları isə göstərir ki, yaxın 5 və daha çox dövr üçün neft qiymətlərinin artımı elə də yüksək olmayacaq.

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 170 (6198) 6 avqust 2015



# Gələcək günlərin pərvanəsi

Zamin HACI
zaminhaci@gmail.com

"Pişik söhbətə qarışdı:
- Mənsə doğrudan da qarabasmaya oxşayıram. Ay işığında mənim profilimə nəzər salın. - Pişik özünü ay işığının altına verib yenə nəsə demək istədi, ancaq ondan susmasını xahiş elədilər, o isə: - Yaxşı, yaxşı, susmağa hazıram. Mən danışmayan qarabasma olacağam, - deyib susdu"
**(Mixail Bulqakov, "Master və Marqarita")**

**Sabir Rüstəmxanlı Ziya Məmmədovu tərifləyib, deyir nəqliyyat naziri adına uyğun olaraq çox ziyalı adamdır, ədəbiyyatı, şeiri sevən, milli mənəviyyata bağlı şəxsdir.**

Əlbəttə, Sabir müəllim Ziya müəllimin qardaşı ilə qudadır, hansısa nankorlar bu tərifnaməni qohumluqla yozacaqlar. Ancaq biz belə yozumları pisləyirik. Sabir müəllim hələ 1993-cü ildə deputatxana kürsüsündən Gəncə qiyamı haqda komissiyanın rəyini oxuyandan bəri bir kəlmə də hansısa şəxsi mənafe güdməmişdir. Həmişə xalqın tərəfində olmuşdur. Həmin rəydə, sözgəlişi, surətçilərin silahsız güllələdiyi Milli Qvardiya əsgərlərinin ölümündən yox, Elçibəy hakimiyyətinin Gəncədə qanı su yerinə axıtmasından bəhs edilirdi. Sabir müəllim tribunadan oxuyurdu ki, hakimiyyət yüzlərlə gəncəlini basıb öldürübdür. Düzdür, sonradan bu "ölülər" ortaya çıxmadı, ancaq nə dəxli? Əsas Azərbaycan türk tarixidir, göytürklərdir, canım sənə desin, Attilanın Avropanı fəthidir. Qalan şeylər düzələn şeylərdir. Biz Sabir müəllimin qədim türklər, nəqliyyat müfəttişi şamanlar haqda roman və poemalarını yüksək maraqla oxuyuruq. Şair özü bu münasibətlə çox yaxşı demişdir: "Qılıncam, ovxarım sözlə inamla, Min ilin başında yurdun səsiyəm. Özüm bu günlərə kül ola-ola, Gələcək günlərin pərvanəsiyəm!". Təsəvvür elə, mən şairin bu misralarını 25 il qabaq "Ömür kitabı"nda oxumuşam, hələ də yadımdadır! İndi onu da təsəvvür elə ki, şair Orhon-Yenisey kitabələrindən Pazırık kurqanına, Motodrom çökəkliyindəki qədim avtovağzaldan Qarant Holdinqə qədər hər bir şeyi yadda saxlayır.

Ziya müəllimin şeirə, sənətə hörmətinə gələndə, şair bunu da doğru söyləyir. Örnək üçün, nəqliyyat müfəttişləri taksi sürücülərini tutub döyəndə onlara Füzulinin "Leyli və Məcnun" poemasından hissələri əzbərlədirlər. Müfəttiş sürücünü yerə yıxıb ağzına təpiklədikcə deyir: "Can vermə qəmi-eşqə ki, eşq afəti-candır, Eşq afəti-can olduğu məşhuri-cahandır!" Sürücü də ağzının qanını silib bəyan edir: "Olduqca mən, götürmə bəladən iradətim, Mən istərəm bəlanı, çün istər bəla məni!". Belə şirin dialoq və mükalimələr daha sonra Beynəlxalq Avtovağzal adlı əsrarlı, mistik ərazidə davam edir. Ziya müəllim milli mənəviyyatımıza uyğun olaraq dövlətin 400 milyon dollara yaxın pulunu orda yerə basdırıbdır, nəticədə indi yenə camaat başına gün döyə-döyə, tozun, ...-püsürün içində avtobusa minib şəhərdən rədd olur. Eşşək boyda bina isə necə dahiyanə mühəndis ağlı ilə qayırılıbsa tamamən boş qalır. Düzdür, bir cüzi hissəsində ziyalılar üçün bazar açılıbdır - iş tapa bilməyən müəllimlər istəsələr orda tuman-köynək sata bilərlər.

Ümumiyyətlə, ziyalı oldunsa, bu eldə sənə çox çətin olacaqdır. Necə deyərlər, el üçün ağlayan göz kor olar. Sabir müəllim, Ziya müəllim, Elton müəllim həmişə el üçün ağlaşırlar, hətta ayrıca göz klinikası bunların üçünə xidmət edir. Bir ara mənim də gözüm xarablaşmışdı *(el üçün ağlamaqdan yox, elə qabiliyyətim yoxdur, telefonda oyun oynamaqdan idi)*, getdim, həkim dedi hal-hazırda Ziya müəllim və qardaşlarına xidmət edirik, itil burdan. Mən də çıxdım getdim, bu yazıda səhv-sühv görsəniz bilin ki, gözümün yaxşı görməməyindəndir.

Yazını Vasif Həsənovun məktubu ilə bitirirəm: "Bu yaxında Tomas Qoltsun öz motosikletini neft muzeyinə verdiyini yazmışdınız. Hesab edirəm bu muzeyə çamadan açmaq üçün vintaçan, yanan binadan penoplast, sökülən villadan qırıntı, ayı kababının şişi, Alim Qasımovun uçduğu xalça da verilməlidir".

İndi söz ələqədar təşkilatlarındır. Vallah.

# Hakimiyyətə yaxın deputat ABŞ-ın təzyiqlərinin səbəbini açıqladı

## Fəzail Ağamalı Amerikanın "demokratiya düşməni" elan etdiyi rejimlərlə yaxınlaşmasının da sirrini açdı

**ABŞ on illərdir düşmən münasibətlərində olduğu, demokratiya düşməni adlandırdığı Kuba və İranla barışır. Maraqlıdır ki, həmin ölkələrin daxilində siyasi sistemdə heç bir müsbət dəyişiklik baş vermədiyi halda Vaşinqton onlarla münasibətlər qurur. Amerika bu iki diktatura rejimi ilə barışır, İran və Kubanın demokratiya qatili olmalarını "unudaraq" hər iki ölkəylə əməkdaşlığa başlayır, amma demokratiya ilə düşmənçilikdə onların tozuna belə çatmayan YAP rejimi ilə münasibətləri gərginləşdirir, Əliyev hakimiyyətini sıxır, təzyiq altında saxlayır.**



Bu paradoksallığın səbəblərinə gəlincə, siyasi ekspertlərin fikrincə, bu barışıq, yaxınlaşma ABŞ-ın strateji maraqları ilə bağlıdır. Kuba, İran və Rusiyanın maraq dairəsində olan dövlətlərdir. Rusiyanın Kubada hərbi arsenalını ABŞ özünə təhlükə sayır. Bunu neytrallaşdırmaq üçün Kuba ilə yaxınlaşma bir siyasi gedişdir. İranın Rusiya ilə nüvə əməkdaşlığı ABŞ-ı narahat edir. Odur ki, İran ilə barışıq ABŞ üçün nüfuz məsələsidir. İranın ABŞ tərəfindən neft bazarına qaytarılması isə qiymətlərin ucuzlaşmasına, dolayısı ilə Rusiyanın iqtisadi çöküşünə hesablanıb. Digər tərəfdən, ABŞ üçün nəzarətdən çıxan ərəb dünyasının, terrorizmin cilovlanması və Türkiyənin regionda artan nüfuzunun qarşısını almaq üçün İranla münasibətlərin istiləşməsi ABŞ üçün mühüm əhəmiyyət kəsb edir.

**Hakimiyyətyönlü deputat Fəzail Ağamalı da hesab edir ki, ABŞ-ın Kuba və İranla yaxınlaşmağa başlaması birbaşa Rusiya amili ilə bağlıdır. Amerika Putin Rusiyasına qarşı ən müxtəlif şəkildə təpkilər göstərməkdə, onu zəiflətməyə çalışmaqda və onun müttəfiqlərini yanından uzaqlaşdırmağa çalışır:** "İlk belə addım "ərəb baharı" oldu və Suriya bu layihədə xüsusi yer tuturdu. Digər bir sıra ərəb ölkələrində bu plan baş tutsa da Suriyada alınmadı. Rusiya buna adekvat olaraq daha ciddi addımlar atdı, Krıma müdaxilə elədi və Ukraynanın şərqində müharibə ocağı yaratdı. Vəziyyətin belə alındığını görən ABŞ Rusiyanın müttəfiqlərini onun yanından almaq siyasətini tətbiq etməyə başladı. İranı Rusiyanın yanından almaq qarşıya hədəf qoyuldu. İranla danışıqlara gedildi və münasibətlərdə istilik yaranıb, saziş imzalanıb, proses davam edir. Eyni vəziyyət Kubaya da aiddir. Kuba ilə Rusiya arasında on illərdir yüksək müttəfiqlik münasibətləri mövcuddur. Kubanı Rusiyadan kənarlaşdırmaq ABŞ üçün lazımdır. Ola bilsin ki, ABŞ illərdir düşmən münasibətlərində olduğu Venesuela ilə də yaxınlaşmağa başlasın. Bütün bunlar ona görədir ki, Vaşinqton özü üçün ən böyük təhlükəni Rusiyada görür. Rusiyanı təcrid etmək üçün onu müttəfiqlərindən məhrum etmək siyasəti aparılır.

Əzəli düşməni İran və Kuba ilə yaxınlaşmaqda olan ABŞ-ın paralel olaraq Azərbaycana sərt mövqe nümayiş etdirməsinin səbəbləri isə onunla bağlıdır ki, Azərbaycan qonşu dövlətlərə qarşı ABŞ-ın planlarında heç vaxt iştirak eləmir".

**Deputatın sözlərinə görə, Azərbaycan Rusiya ilə normal münasibətlərə malikdir. Azərbaycan ABŞ-Rusiya münasibətlərində tərəf olmaq istəmir. Bu, çox doğru siyasətdir. Azərbaycanın Rusiya ilə münasibətlərinin hərtərəfli inkişafı ABŞ-ı qıcıqlandırır. Ona görə də Azərbaycanı sıxışdırırlar:** "İkinci amil isə ABŞ-ın xarici siyasətinin başında Con Kerrinin dayanmasıdır. Con Kerri açıq şəkildə ermənipərəst mövqedə olan şəxsdir. 1990-cı ildən üzü bəri onun Azərbaycana qarşı apardığı antiinsani addımlar hər kəsin yaddaşındadır. Hesab edirəm ki, ABŞ-Azərbaycan münasibətlərinin sərinləşməsində həm də bu amil rol oynayır".

❑ **Etibar SEYİDAĞA**

# "Avrasiya Hərəkatı"na qoşulanların şübhəli susqunluğu

## Surət Hüseynovla Abbas Abbasovun yeni təşkilatdan gözləntiləri var

**Ötən saylarımızın birində manşetdən dərc etdiyimiz "İmranov-Abbasov-Hüseynov" triosu Azərbaycana qarşı təhlükəli oyunda" sərlövhəli yazı dərc etmişdik. Söhbət keçmiş milli təhlükəsizlik naziri Nəriman İmranovun və Rusiya Ədliyyə Nazirliyinin keçmiş əməkdaşı, ikinci dərəcəli dövlət müşaviri İlqar Qasımovun Azərbaycanda "Avrasiya Hərəkatı" yaratmalarından, bu quruma daha çox siyasi-hərbi keçmişi olan şəxsləri toplamasından gedirdi.**



Nəriman İmranov



İlqar Qasımov

Azərbaycan mətbuatı bu hərəkatı birmənalı olaraq Rusiyanın ölkəmizə qarşı növbəti provokasiyası kimi təqdim edir. Xatırladaq ki, 2013-cü ildə Moskvada Rusiya Azərbaycanlıları Təşkilatları İttifaqı (RATİ) adlı təşkilat yaradılmışdı. Bu təşkilatın Kremlin iradəsi ilə yaradıldığı haqda iddialar sonrakı proseslərdə özünü tam doğrultdu. Sonradan mətbuatın "Milyarderlər İttifaqı" adı verdiyi təşkilat prezident seçkisində öz namizədi ilə iştirak edib hakimiyyəti götürməyi planlaşdırırdı. Artıq Rusiyanın bu plandan əl çəkdiyi və daha təhlükəli bir planın icrası yönündə addımlar atıldığı göz önündədir. Rusiyanın Azərbaycanda keçirilən hər seçki öncəsi rəsmi Bakı ətrafında gərginlik yaratmaq kursu illərdir ki, davam edir. Parlament seçkiləri öncəsi "Avrasiya Hərəkatı"nın elan olunması da təsadüfi deyil. "Milyarderlər İttifaqı" da prezident seçkiləri öncəsi yaradılmışdı.

Maraqlı olan odur ki, "Avrasiya Hərəkatı"nın elan etdiyi Rusiyaya yaxınlaşma prinsiplərini hərbçilərin çiyinində, onların vasitəsi ilə gerçəkləşdirmək istəyir. Və bunu Azərbaycan mətbuatı yazarkən fikir bildirməyə, əksini sübut etməyə belə cəhd etmirlər. Qiyamçı eks baş nazir Surət Hüseynovun, baş nazirin sabiq 1-ci müavini Abbas Abbasovun da yeni hərəkata qoşulması haqda yazılanlara reaksiya verməmələri də sual doğurur. Görünür, S.Hüseynov və A.Abbasov susmaqla yazılanlarla razı olduqlarını cəmiyyətə çatdırmaq istəyirlər. Yeni hərəkatdan gözləntiləri var. Təkzib etməməklə gözləntilərinin gerçəkləşəcəyi günü gözləyirlər. Alınmayacaqsa, çıxıb heç nə olmamış kimi təkzib verəcəklər. Hələliksə susurlar...

Qeyd edək ki, vaxtilə Abbas Abbasovun kuratoru olmuş N.İmranovun bu gün də Surət Hüseynovla əlaqələrinin olması haqda məlumatlar var. Sabiq milli təhlükəsizlik naziri Nəriman İmranov ömrünü Rusiya Dövlət Təhlükəsizlik Komitəsinin (DTK-KQB) divarları arasında keçirib. 1992-ci ilin yazında, fəxri təqaüdə çıxmasına 6 ay qalmış doğma DTK divarları onu sıxmağa başlayıb. 24 il 6 aylıq xidmətdən sonra N.İmranov istefa verib və Azərbaycana gəlib. N.İmranovun bu hərəkətinin vətənpərvərlik hisslərindən qaynaqlandığını deyənlər az keçmədi ki, yanıldıqlarını başa düşdülər. Hərbi xidmətdə olanlar səbirsizliklə sakit və qayğısız həyatlara başlamalarını gözləyirlər. Belə bir imkan isə 25 illik xidmətdən sonra verilir. N.İmranov Azərbaycana xidmətinin bitməsinə 6 ay qalmış qayıdıb, üstəlik, istefa verməklə, özünü təqaüddən məhrum etməklə. Ölkədə siyasi gərginliyin olduğu bir vaxtda N.İmranovun dönüşü haqda o dövrün siyasi hakimiyyəti, AXC iqtidarı da məlumatlı olub. Bu dönüşün heç də yaxşı nəticələr verməyəcəyini təxmin etsələr də, lazımi addım atmağa tələsməyiblər. Hakimiyyətdəkilər qərar qəbul etməyə tələsmədikləri bir vaxtda N.İmranov gözləniləṅlərin əksinə olaraq Gəncəyə yollanıb. Milli hakimiyyət devrildikdən sonra məlum olur ki, N.İmranov qiyamçı polkovnik Surət Hüseynovun əsas məsləhətçilərindən olub. Yeri gəlmişkən, S.Hüseynovla N.İmranovun qohumluq əlaqələrinin olması haqda da məlumatlar var.

Nəriman İmranovun gözlənilmədən ictimai-siyasi fəaliyyətə başlaması yeni və daha təcrübəli kadrların Azərbaycanla mübarizəyə qoşulması kimi də qiymətləndirilir. Görünən odur ki, Rusiya siyasi dairələri Azərbaycanı öz nüfuz dairəsinə qaytarmaq üçün yeni oyuna başlayıblar. Bu oyunun harada və hansı sonluqla bitəcəyi Azərbaycan hakimiyyətinin səriştəsindən, xalqın öz müqəddəratını həll etmək kimi ağır bir sınaqdan necə çıxacağından asılı olacaq.

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 170 (6198) 6 avqust 2015

# Ankara və Vaşinqton böyük strateji anlaşma içində

## Türkiyə ABŞ-la İŞİD-ə qarşı birgə əməliyyat hazırlayır; Amerika mətbuatı: "Yaxın Şərqdə xəritə dəyişəcək, bölgənin gələcəyini Türkiyə və ABŞ prezidentlərinin görüşü həll edəcək..."

**Yaxın Şərq regionunda qanlı qarşıdurmalar davam edir. İŞİD və PKK terroru ilə mübarizənin yeni fazasına qərar verən Türkiyə hazırda bu mübarizəni daha effektli eləməyin, canlı itkiləri və qaçqınların sayını azaltmağın yollarını arayır. Diqqətçəkicidir ki, bu yöndə Ankara ilə Vaşinqton ortaq anlaşma içindədir və heç vaxt olmadığı qədər qətiyyətli təsir bağışlayır.**



Hər şeydən göründüyü kimi, bu iki supergüc bölgənin təzədən şəkillənməsindək gedəcək proseslərdə sinxron siyasət yürütmək niyyətindədir ki, bu da həm də Azərbaycan adına sevindirici yenilik sayıla bilər.

*****

"ABŞ və Türkiyə Suriyanın şimalında İŞİD-dən təmizlənərək qurulması planlaşdırılan təhlükəsiz bölgədən kürd hərbçilərinin keçidinə icazə verməyəcək". Nüfuzlu "Wall Street Journal" nəşrinin yazdığına görə, bu bölgənin əhalisinin əksəriyyəti ərəb və türkməndir. Rəsmi Ankara kürd döyüşçülərin bu ərazilərə daxil olaraq yerli sakinləri qovacağından narahatdır.

Məlumatda deyilir ki, ABŞ hökuməti bufer zonada təhlükəsizliyin təmin olunmasına Kürd Müdafiə Birləşmələrini (YPG) buraxmayacağına dair Ankaraya söz verib. Bununla yanaşı, Birləşmiş Ştatlar hökuməti zəruri hallarda məsələnin yenidən gündəmə gətirilməsinin də vacib olduğunu qeyd edib.

Nəşr ABŞ-ın keçən ildən başlayaraq, Suriyada İŞİD-ə qarşı döyüşən YPG-yə dəstək olaraq aviazərbələr endirdiyini də xatırladıb. ABŞ-da fəaliyyət göstərən "Müharibələrin Araşdırılması İnstitutu" qeyd edir ki, Suriyada vətəndaş müharibəsi başlayandan YPG-nin nəzarət etdiyi ərazinin sahəsi böyüyüb. Türkiyə hökuməti isə YPG-nin PKK ilə müqayisədə daha praqmatik olduğu qənaətindədir. Lakin YPG-yə "qırmızı xətti" keçməməsi barədə xəbərdarlıq da edilib.

*****

Beləcə, Ankara ilə Amerika arasında bir müddət çəkən durğunluqdan və Türkiyə-Rusiya dostluq dövrü "daşa dirənəndən" sonra iki dövlətin yenidən strateji əməkdaşlıq müstəvisinə qayıtdığını söyləmək mümkündür - təbii ki, qarşılıqlı siyasi qazanclar müqabilində.

Söhbət qardaş ölkəyə qarşı Qərbin istifadə etməkdə olduğu məkrli "kürd kartı"nın zəiflədilməsindən və İŞİD-ə qarşı ABŞ-ın marağında olduğu, Türkiyənin iştirakı ilə ən təsirli birgə tədbirlərlə bağlı anlaşmadan gedir. AKP iqtidarının başqa bir qazancı isə xarici və hərbi siyasətdəki yeni uğurlar fonunda erkən parlament seçkiləri üçün hakim partiyanın daha əlverişli start göstəricilərinə nail olması ola bilər.




*****

"Yaxın Şərqdə xəritə dəyişəcək. PKK və İŞİD-ə qarşı böyük hərbi əməliyyatlar həyata keçiriləcək. Bəşər Əsədin hakimiyyətdən getməsi üçün Vaşinqton artıq daha fəal rol almağa başlayır. Bölgənin gələcəyi Türkiyə və ABŞ prezidentlərinin görüşündə planlaşdırılacaq". Bu barədə də ABŞ mətbuatı yazıb (anspress).

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Çin, İndoneziya və Pakistan səfərlərindən geri dönərkən jurnalistlərə Vaşinqtona səfər edəcəyi barədə verdiyi açıqlamadan sonra ABŞ mətbuatı yazır ki, görüşdə Yaxın Şərqin yeni sərhədləri formalaşdırılacaq.

Doğrudur, Ərdoğan bildirib ki, ABŞ səfərinin vaxtı dəqiq bilinmir. **"BMT Baş Assambleyasının sessiyasında iştirak edərsəm, səfər sentyabrda, əks halda, bu ay baş tuta bilər"** - deyib Türkiyə dövlət başçısı.

ABŞ mətbuatı yazır ki, Ərdoğanın bu səfəri regionla bağlı böyük dəyişikliklərə səbəb olacaq. Türkiyə ilə ABŞ arasında İncirlik hərbi bazası ilə bağlı razılığa gəlməsinə diqqət çəkən qəzetlər qeyd edir ki, Ərdoğanın "bufer zona" tələbini artıq Vaşinqton qəbul etmiş kimi görünür: **"Vaşinqton Suriyada döyüşən YPG silahlıları arasından agentlərini geri çəkib. Bu isə YPG-nin bölgədə məhv ediləcəyi ilə bağlı bir siqnal hesab edilir. "Hələb dəhlizi" adlandırılan Fərat çayının qərbindəki bölgə İŞİD terrorçularından tamamilə təmizlənəcək".**

*****

Bütün bunlar isə Böyük Britaniyanı narahat etməyə başlayıb. İngilis mətbuatının yazdığına görə, anlaşma nəticəsində Fərat çayının qərbi tamamilə Türkiyəyə veriləcək.

**"Keçən həftə əldə olunan İncirlik razılaşmasından sonra yeni addımlar atıldı. Türkiyənin PKK və İŞİD-ə qarşı böyük əməliyyatları yeni vəziyyətin yaranmasına səbəb oldu. Bu əməliyyatlar bitəndən sonra Türkiyə-Suriya sərhədindəki Fərat çayının qərbi bütünlüklə Türkiyənin olacaq. Bura Suriyanın Cərablus, Afrin, Hələb və İdlib şəhərləri daxildir"** - ingilis mətbuatı qeyd edir.

*****

Bur arada Türkiyə xarici işlər naziri vəzifəsini icra edən Mövlüd Çavuşoğlu İŞİD-ə qarşı genişmiqyaslı hərbi əməliyyatın hazırlandığını bildirib. Nazir bu haqda ASEAN ölkələri xarici işlər nazirlərinin görüşünün keçirildiyi Malayziyaya səfəri zamanı TRT televiziya kanalına verdiyi müsahibəsində deyib.

**"ABŞ-la müqavilələrimiz çərçivəsində, xüsusilə də İncirlik bazasının istifadəsi ilə bağlı biz uzun bir yol qət etmişik. Biz görürük ki, oraya Amerikanın pilotsuz uçan aparatları və pilotların idarə etdiyi təyyarələr gəlməyə başlayıb. Tezliklə biz ABŞ-la birlikdə İŞİD qruplaşmasına qarşı kompleks şəkildə hərbi əməliyyatları həyata keçirəcəyik,** - deyə XİN başçısı vurğulayıb.

Yerli mətbuat Pentaqona istinadən məlumat verir ki, ABŞ bu yaxınlarda yeni müqavilələr çərçivəsində İncirlik bazasından istifadə edib. İlk dəfə olaraq, oradan tam silahlanmış və döyüşə hazır vəziyyətdə olan pilotsuz uçan aparat havaya qalxıb. Həmin aparat Suriya ərazisində uçuş həyata keçirib, lakin bu ərazilərdəki İŞİD mövqelərinə zərbələr endirməyib. Bundan əvvəl ABŞ-a məxsus uçan aparatlar buradan havaya qalxıb, lakin onlar silahlı olmayıb və kəşfiyyat xarakterli uçuşlar həyata keçirib.

*****

Beləliklə, Türkiyə-ABŞ əlaqələri həm siyasi-diplomatik, həm də hərbi aspektləri özündə ehtiva eləməklə tamamən yeni keyfiyyət mərhələsinə adlamaqdadır. Yeni mərhələ qardaş ölkənin daha güclü və vazkeçilməz regional oyunçu statusunu möhkəmlədə bilər ki, bu da Azərbaycanın da milli maraqlarına uyğundur. Bölgə gerçəkdən də yeni şəkillənmə dövrünə girir. Bunun bir təzahürü də Türkiyə Silahlı Qüvvələri Baş Qərargahına yeni komandanın gətirilməsi sayıla bilər.

❑ **Siyasət şöbəsi**



# İran-Azərbaycan münasibətlərində yeni mərhələ açılır

## "İran neft və qazını Avropaya ixrac etmək üçün Azərbaycanın infrastrukturundan istifadə edə bilər"

**İqtisadiyyat və sənaye naziri Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti İranda səfərdə olub. Nazirliyin mətbuat xidmətindən "APA-Economics"ə verilən məlumata görə, nümayəndə heyətində İqtisadiyyat və Sənaye, Rabitə və Yüksək Texnologiyalar nazirliklərinin, SOCAR-ın, "Azərbaycan Dəmir Yolları" QSC-nin, "Azərenerji" ASC-nin, Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin, Mərkəzi Bankın yüksək vəzifəli nümayəndələri və iş adamları olub.**

İranın rabitə və informasiya texnologiyaları naziri Mahmud Vaezinin dəvəti əsasında həyata keçirilən səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti İran prezidenti Həsən Ruhani tərəfindən qəbul edilib, bir sıra görüşlər keçirilib.

İran prezidenti Azərbaycan nümayəndə heyətini qəbul edərək ölkələrimiz arasında tarixi dostluq münasibətlərini vurğulayıb, siyasi, iqtisadi və mədəni əlaqələrimizin yüksələn xətlə inkişaf etdiyini, İranın Azərbaycanla əlaqələrin genişləndirilməsinə önəm verdiyini qeyd edib. Azərbaycan və İran arasında əlaqələrin daha da inkişafı üçün geniş potensialın olduğunu bildirən H.Ruhani nəqliyyat, enerji, investisiya qoyuluşu sahəsində əməkdaşlığın daha da genişlənməsinə dair fikirlərini bölüşüb.

Ş.Mustafayev danışıqlar yolu ilə nüvə proqramına dair əldə edilən razılaşmanı alqışladığını, bu razılaşmanın beynəlxalq və regional səviyyədə sülh, təhlükəsizlik və əməkdaşlığın inkişaf etdirilməsinə töhfə verəcəyinə inandığını qeyd edib. Azərbaycan və İran prezidentlərinin 2014-cü ildə həyata keçirdikləri qarşılıqlı rəsmi səfərlərin ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsində mühüm rol oynadığını vurğulayan nazir neft, kimya, ticarət, sənaye, energetika, nəqliyyat, kənd təsərrüfatı, bankçılıq və digər sahələrdə əməkdaşlığın daha da inkişafı üçün imkanları qeyd edib.

İranın rabitə və informasiya texnologiyaları naziri M.Vaezi ilə keçirilən görüşdə nazir Ş.Mustafayev ölkələrimiz arasında əlaqələrin inkişafında Azərbaycan və İran dövlət başçılarının böyük rolunu qeyd edib, qarşılıqlı səfərlərin və keçirilən görüşlərin əlaqələrin genişlənməsində əhəmiyyətini vurğulayıb. Bildirilib ki, Azərbaycan İranla sanksiyalar dövründə də əməkdaşlıq edib və sanksiyalar aradan qalxdıqdan sonra da əməkdaşlıq edəcək.

Görüşdən sonra Azərbaycanla İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə dövlət komissiyasının həmsədrləri birgə mətbuat konfransı keçirib, KİV nümayəndələrinin suallarını cavablandırıblar.

İranın neft naziri Bijan Namdar Zəngənə ilə keçirilən görüşdə Azərbaycanın iqtisadiyyat və sənaye naziri Ş.Mustafayev ölkəmizin təşəbbüsü və fəal iştirakı ilə reallaşan dünya əhəmiyyətli iri neft-qaz layihələri barədə geniş məlumat verib, bu sahədə əməkdaşlıq məsələləri müzakirə edilib. Görüşdə neft-qaz sahəsində fəaliyyət göstərən Azərbaycan və İran şirkətlərinin ölkəmizdə və İranda işləməyə maraq göstərdiyi qeyd edilib, təbii qaz mübadiləsi və yeraltı qaz anbarlarından istifadə imkanları, neft-qaz maşınqayırması və neft-qaz avadanlığının birgə istehsalı sahələrində əməkdaşlıq və s. məsələlərə dair fikir mübadiləsi aparılıb. Nazir bildirib ki, İran neft və qazını Avropa bazarlarına ixrac etmək üçün Azərbaycanın infrastrukturundan istifadə edə bilər.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti İranın iqtisadi məsələlər və maliyyə naziri Əli Teyyibniya ilə də görüşüb. Görüşdə iqtisadi-ticarət, maliyyə, bankçılıq, sığorta, investisiya qoyuluşu sahələrində əməkdaşlığın daha da genişləndirilməsi imkanları müzakirə edilib, qarşılıqlı investisiya qoyuluşunun həyata keçirilməsinə dair işçi qrupunun yaradılması qərara alınıb.

YENİ MÜSAVAT
N 170 (6198) 6 avqust 2015

**"Azadlıq" qəzetinin baş redaktoru və "Azərbaycan saatı" teleproqramının müəllifi Qənimət Zahidin qohumlarının həbsi gündəmin əsas mövzularındandır. İyul ayında Q.Zahidin 3 qohumu həbs olunub, 2-si isə axtarışdadır. Qənimət Zahid həbsləri özünün siyasi fəaliyyəti ilə bağlayır və hakimiyyətin bu yolla onu geri çəkilməyə məcbur etmək istədiyini deyir.**



# "Mənim uşağımı Qənimətin qurbanı etməsinlər...."

## "Azərbaycan saatı"na görə oğlu tutulan Fəridə Zahidova "Yeni Müsavat"a danışdı

**"Qənimətin anası deyir ki, əgər o, ailəsi ilə xaricdə rahat həyat yaşayırsa, niyə o biri balalarımın uşaqları, ailəsi bu zülmü çəkməlidir?"**

*Narkotiklərin qanunsuz dövriyyəsi ittihamı ilə həbs edilən Rüfət Zahidovun anası Fəridə Zahidova dünən "Yeni Müsavat" qəzetinin redaksiyasına gələrək, baş vermiş olaya münasibət bildirib. Müsahibimiz öncə oğlunun həbs hekayəsindən danışıb.*

- İyulun 18-də rayona gedəndə bizə zəng gəldi. O vaxt da bizim küçədə işıqlandırma işləri aparılırdı. Yoldaşıma zəng gəldi və soruşuldu ki, evdə yoxsuz, hara gedirsiz? Yoldaşım da dedi ki, rayona gedirik. Oğlum da atasına dedi ki, bəs niyə yerini deyirsən, nə bilirsən hansı məqsədlə soruşurlar. Soruşdular ki, nə vaxt gələcəksiz? Dedi ki, gecə 12-də. Cavab da belə oldu ki, nə zaman gəlsəniz, xəbər edin. Sonra gec gəldik deyə xəbər eləmədik.

***- Bəs bu zəng edən kim idi?***

- Demədi adını, bilmədik. Sonradan öyrəndik ki, Mehdiabad polisidir, axtarış şöbəsindən. Ayın 19-da səhər saat 9-10 radələrində iki maşın dolusu polis gəldi. Oğlum yatırdı. Yoldaşım açdı qapını. Dedilər ki, maşının sahibi - oğlum Rüfət sürən maşını nəzərdə tuturdular - lazımdır, mütləq bölməyə getməlidir. Mən də çıxıb soruşdum ki, niyə? Adam vurubsa, radara düşübsə, qoy yol polisi gəlsin. Bölmədə nə işi var? Həmin vaxt bunlara hardansa zəng gəldi, çıxıb getdilər. Növbəti gün oğlum görüb ki, bunun arxasınca nəsə maşın düşüb. Bundan şübhələnib. Oğlum şirkət maşını sürür, firmalardan birinin mallarını mağazalara paylayır. Arxasınca düşən maşının nömrəsini isə yanında əyləşən, firmanın ekspeditoru olan xanım yazıb. Hər ehtimala qarşı həmin əməkdaşa deyib ki, nəsə baş versə, firmaya da, evə də xəbər verərsən. Bir gün əvvəldən evə polis gəlmiş, qəribə-qəribə suallar vermişdi deyə, bilmirdik nə məsələdi. Ona görə narahat idik. Nəsə, oğlum malları Yasamal ərazisindəki mağazalara paylayıb, günorta saat 12-13 arası yeməkxanalardan birinin qabağında nahar üçün dayananda bunu polislər tutublar. Sonra bizə iş yoldaşları xəbər verdilər, hamımız onu axtardıq, amma heç bir polis bölməsindən demədilər ki, hardadır. Avqustun 3-də məktub çatıb ki, oğlunuz Narkotiklərə qarşı Mübarizə İdarəsindədir. Getmişik ora. Deyirlər ki, guya saxlanılan gün onun həm üstündən, həm də maşınından narkotik maddə çıxıb. Necə ola bilər ki, adam şirkət maşınında, yanında ekspeditel qız ola-ola narkotik gəzdirsin?! Səhər-səhər mal yığılır bu maşına, sonra maşın mağaza-mağaza gəzir. Orda narkotik olması nə qədər inandırıcıdır? Şirkət maşınında narkotik gəzdirirlər? Mən bilirəm ki, uşağım siyasətçi deyil. Narkotikanın da onunla heç bir əlaqəsi yoxdur və ola da bilməz.

**"Lazımdırsa, Qənimət qəzetini bağlasın, özünə xəsarət yetirsin, amma oğlum onun ucbatından həbsdə qalmasın..."**



***- Özü ilə görüşməyə imkanınız olubmu?***

- Xeyr, qoymayıblar. Bunu ancaq mən əmisi Qənimət Zahidin verilişinin qurbanı sayıram. Ona görə də o verilişi dəstəkləmirəm, nifrət edirəm, imtina da edirəm. O uşağın Qənimətlə heç bir əlaqəsi olmayıb. Orta savadlı bir uşaqdır, ancaq şirkətlərdə maşın sürüb. Nə ona məqalə göndərməyib, nə də hansısa toplantıdan şəkil. Mətbuata, siyasətə hər hansı bağlılığı yoxdur onun. Bu sahədən uzaqdır mənim uşağım. Səhər işə gedib, axşam da evə qayıdıb. Bunu araşdırsalar, görəcəklər ki, mən deyən kimidir. Oğlumun onunla heç bir bağlılığı yoxdur. Mənim uşağımı Qənimətin qurbanı etməsinlər. Lazımdır, qəzetini bağlasın, lazımdır, özünə xəsarət yetirsin. O, günahsız uşaqdır.

***- Qənimət bəyin özü ilə danışa bilmisizmi? O nə deyir?***

- Danışmışıq. Deyir ki, məndən imtina edin. Qohumlarım da mən gündədir. Hamı deyir ki, isinmədik istisinə, kor olduq tüstüsünə.

**"Biz dövlətimizi sevirik, ona bağlıyıq, uşağımızın da siyasətə heç bir aidiyyəti yoxdur"**

***- Bəs indiki durumda fikriniz, planınız nədir?***

- Heç bir fikrimiz, planımız yoxdur. Mən uşağımın həqiqətən günahsız olduğunu iddia edib, dövlətimdən də onu tələb edirəm. Axı onların əlində bunu araşdırmaq nə çətin işdir? Arayıb axtarsınlar, görəcəklər ki, onun siyasətlə, mətbuatla heç bir əlaqəsi yoxdur. Tam məsuliyyətimlə deyirəm: əgər uşağımın bir günahı olsaydı, mən bir ana kimi geri çəkilərdim. Mən Allaha, Qurana and içirəm ki, bu uşaq siyasətdən uzaqdır. Heç əlinə qəzet də alıb oxumayıb, Qənimətin verilişinə isə heç baxmayıb, xəbəri də yoxdur ki, orda nədən danışırlar. Bütün günü işləyən adamdır. İşdən yorğun gələndə də ailəsinin qayğısı ilə, problemləri ilə maraqlanıb.

***- Qənimət bəylə danışanda ortaq bir məxrəcə gələ bilmədizmi?***

- Bircə onu dedi ki, məndən imtina eləyin. Həqiqətən də o, çox soyuqqanlı adamdır. Mən 37 ildir ki, o evin gəliniyəm. Onun heç vaxt qohum əzizləməsini görməmişəm. Soyuqqanlı biri olub. Uşaqlıqdan öz fikri ilə hərəkət edib. 8-ci sinifdən etibarən kənddən çıxıb gedib. Sonra oxuyub, işləyib, nə əldə edibsə, özü əldə edib. Qohumlarla əlaqəsi yoxdur. Xeyrə-şərə də çox nadir hallarda gedir. Ya sonradan gedər, ya da dil-ağız edərdi. Qayınanam *(Q.Zahidin anası-red.)* da yaşlı adamdır. Yalvarır ki, məni polisə aparın, gedim orda sözümü deyim. O da deyir ki, bu günahsız gəncləri ordan çıxarmaq lazımdır, əgər Qənimət ailəsi ilə orda rahat həyatdadırsa, niyə o biri balalarımın uşaqları, ailəsi bu zülmü çəkməlidir? Amma rayonda baş verən həbslər zamanı polis deyib ki, Qənimət orda nə zaman susacaqsa, biz də o zaman dayanacağıq. Narkotik çox ağır ittihamdır. Bizim uşaqlarımızın gələcəyi var. Səhər bu, işə girməli, ailə saxlamalıdır. Qoy birbaşa desinlər ki, bu həbs əminə görədir. Mən də deyim ki, o əmin, o sən. Vallah, indi elə dövrdür ki, ata oğula görə cavabdeh deyil. Onda qala əmi, özü də Fransada olan əmi.

***- Bəs Qənimət bəy "Azərbaycan saatı"nı bu həbslərə görə, müvəqqəti də olsa dayandırmaqla bağlı hər hansı bir şey dedimi?***

- Yox, demədi. Heç bilmirəm ki, elə bir fikri var, ya yoxdur. Əsəbimdən heç onlarla danışmamışam. Oğlum Tariyel dedi ki, zəng edib, onlarla danış, sözünü de. Dedim ki, Tariyel, mən hər şeyə əyilən adam deyiləm. Dövlətim axtarıb tapacaq ki, mənim oğlum günahsızdır və onu azad edəcək. Bunu bilə-bilə heç kimə zəng edib, alçala bilmərəm. Axı Qənimət əvvəldən belə olub. Bir adamın qolundan tutmayıb, qohuma-qardaşa kömək olmayıb. Heç kimə arxa dayanmayıb. Bir anası var, onu da ölən qardaşının uşaqları saxlayır.

***- Buna bənzər bir hal Emin Milli ilə bağlı baş verdi və qohumları imtina etdi. Zahidovlar nə düşünür bu haqda?***

- Qohumlar nə düşünür, bilmirəm. Amma əgər bir qohuma görə mənim balam günahsız yerə tutulacaqsa, həbslərdə qalacaqsa, mən o qohumdan bu gün yox, dünəndən imtina edirəm. Özü də təkcə mən yox, bütün ailəm. Uşaq özü də içəridən vəkilinə deyib ki, yeri gələrsə, mən də əmimdən imtina etməyə hazıram. Rüfət nə görüb ki? 2-3 ildir müalicə ilə, əzab-əziyyətdən sonra uşaq tapıb, indi də həmin uşağına həsrət qalıb. Nə əmibazlığıdır? Əmi ona bu vaxta qədər nə edib ki?

***- Bu təzyiqlərin olacağını təxmin edirdizmi? Hər halda, oğlanlarınızdan biri - Tariyel Zahidov artıq Belçikada mühacirdir, təzyiqlərə görə ölkədən gedib.... Bəlkə digər oğlunuzu da zamanında göndərsəydiniz, bunlar baş verməzdi?***

- Xeyr. Tariyeli də xaricə mən göndərməmişəm. Yoldaşı getdiyi üçün o da gedib. Əgər istəsəydim, 2 il əvvəl gedərdim. O vaxt bizim yaşadığımız evə görə kompensasiyamızı ödəyib, ordan köçürdülər. Əlimdə pulum da vardı. İstəsəm çıxıb gedərdim. Mən öz ölkəmdən, vətənimdən niyə getməliyəm ki? Mən bu ölkəyə, vətənimə inandığım üçün o biri oğlumun burdan getməsinə heç vaxt razı olmamışam. Heç ağlıma da gəlmir. Biz bu qədərini təsəvvür etmirdik axı. Hər gün televiziyalar bar-bar bağırır ki, ölkədə demokratiya, haqq-ədalət var. Mən dövlət başçısından da, onun xanımından da çox razıyam. Bəlkə də onun adına xələl gətirmək üçün günahsız insanların başına bu işi gətirirlər? Qənimətdən narazısız? Gedin onu tutun, onun verilişini orda bağlayın, onunla əlaqəsi olanları saxlayın. Lap elə kənddəki qohumlarımız olsun. Onlar nə bilirlər ki, siyasət nədi, veriliş nə deməkdir? Orta təhsili adamlardır, daşla-palçıqla işləyən adamlardır. Mənim oğlum da orta məktəbdən sürücüdür.

**"Əgər bir qohuma görə mənim balam günahsız yerə həbslərdə qalacaqsa, mən o qohumdan bu gün yox, dünəndən imtina edirəm"**



❑ **Sevinc TELMANQIZI**

**Ölkə başçısının dərman preparatlarının satışının tənzimlənməsi ilə bağlı verdiyi tapşırığın ardından Səhiyyə Nazirliyinin də iştirakı ilə Tarif Şurası iyulun 30-da "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi barədə" qərar qəbul edib. Bu qərar əsasən 250-dən artıq ən vacib dərman vasitəsinin qiyməti tənzimlənib. Qərarın məqsədi əhalinin dərman almağa çəkdiyi xərclərinin azaldılması, eyni dərman preparatlarının ölkənin bütün apteklərində vahid qiymətə satılmasıdır.**

# Tarif Şurasının qərarı satışda keyfiyyətsiz dərmanların artmasına yol açacaq

**Ekspert:** "Bazarda daha çox ikinci dərəcəli ölkələrdən gətirilən dərmanlar dövr edəcək, nəinki Türkiyə və ya Avropa istehsallı preparatlar..."



Artıq bir neçə gündür Tarif Şurasının yayımladığı yeni qiymət cədvəli mediada müzakirə olunur. Bəzi ekspertlər bunu müsbət qiymətləndirsələr də azad bazar iqtisadiyyatı şəraitində inzibati yolla qiymət tənzimlənməsinin ağır nəticələrə gətirib çıxaracağını iddia edənlər də var.

Azərbaycanda dərman idxalının monopoliyada olması və bir neçə şəxs tərəfindən idarə edilməsi, habelə dərman vasitələri üzərinə qoyulan gömrük və vergi rüsumlarının yüksək olması bu sahədə qiymət tənzimlənməsinin tətbiqinin qarşısında duran əsas əngəllərdir. Bu səbəbdən bəzi ekspertlər dərman preparatlarının qiymətlərinin tənzimlənməsi prosesində baş verəcək problemlərdən narahatlıqlarını ifadə ediblər.

**İqtisadçı ekspert Natiq Cəfərlinin** sözlərinə görə, Tarif Şurasının qərarı bazara daha ucuz və keyfiyyətsiz dərmanların ayaq açmasına, bahalı dərmanlarla bağlı qara bazarın yaranmasına belə gətirib çıxara bilər: "Dərman sahəsi çox həssas sahə olduğundan bu sahədə atılan addımlarda hərtərəfli hesablamalar aparılmalıdır, verilən qərarlar nələrə gətirib çıxara bilər. Çox təəssüf ki, yenə də inzibati yolla dərman preparatlarının qiymətlərini tənzimləməyə çalışırlar. Başqa heç bir alternativ fikir səsləndirilmir, müzakirələr aparılmır. Əslində dərman preparatlarının qiymətlərinin tənzimlənməsi təcrübəsi var. Lakin bunun son addım olaraq gündəmə gəlməsi lazım idi. İlkin olaraq illərdir haqqında söhbət gedən tibbi sığortanın işlək vəziyyətə gətirilməsi lazım idi. Məhz icbari tibbi sığortanın tətbiqindən sonra həm həkimlərin bu məsələyə münasibəti dəyişəcəkdi, həm də sığortanın verdiyi imkanlardan istifadə edərək vətəndaşlar apteklərdən rahat şəkildə dərmanları əldə edə biləcəkdilər. Necə ki, bu, Türkiyədə baş verdi. 2000-ci illərin əvvəllərində bizdəkinə bənzər vəziyyət Türkiyədə var idi. Orada böyük bir islahat sistemi - həm icbari sığorta, həm yaşıl kart sistemi tətbiq olundu. Bundan sonra isə dərmanların qiymətinin bir hissəsinin sığortadan ödənilməsinə keçildi.

Bizdə isə birbaşa sonuncu addım olan dərmanların qiymətinin tənzimlənməsi məsələsi gündəmə gəldi. Bu da inzibati yolla bazara müdaxilələrə gətirib çıxara bilər. Bunun çox böyük fəsadları ola bilər. Əgər hökumət dərman qiymətlərini müəyyən molekullar üzrə müəyyən edibsə, sahibkarlar eyni molekullar üzrə daha ucuz və keyfiyyətsiz, məsələn, Avropa istehsalı yerinə, Hindistan istehsalı olan dərmanlar gətirəcəklər. Bununla da keyfiyyətsiz dərmanlar bazara ayaq açmağa başlayacaq. Bazarda daha çox ikinci dərəcəli ölkələrdən gətirilən dərmanlar dövr edəcək, nəinki Türkiyə və ya Avropa istehsalı olan dərmanlar. Bu isə gələcəkdə daha böyük fəsadlara yol aça bilər. Çünki həmin keyfiyyətsiz dərmanlar insanların xəstəliyini sağaltmamaqla yanaşı, daha böyük ziyanlar vura bilər. Bundan başqa, insanlar həmin dərmanların keyfiyyətsizliyini görüb daha keyfiyyətli dərman axtarışına çıxa bilərlər və dərmanları ayrı-ayrı şəxslərdən almağa üstünlük verəcəklər. Bu isə öz növbəsində dərman satışına nəzarətin itirilməsi ilə nəticələnəcək".

**İqtisadçı ekspertin sözlərinə görə, bu kimi hallar qara bazarı aktivləşdirəcək, insanlar çamadanlarda Avropa istehsalı olan preparatların ölkəyə gətirilməsinə və satışına cəhd edə bilərlər:** "Bu qərar hərtərəfli düşünülərək tətbiq edilməzsə, nəzarətsizliyi artıracaq. Hökumətin bu addımı əks-effekt doğura bilər. Biznesə bu dərəcədə müdaxilə yersizdir. Əgər hökumət qiyməti salmağa çalışırsa, ilk növbədə icbari sığortanın tətbiqinə başlamalı, ikinci addım kimi dərman preparatlarına qoyulan gömrük rüsumları ləğv edilməli idi ki, sahibkarlar daha az xərclə ölkəyə dərman gətirə bilsinlər. Hökumət bu addımların heç birini atmaq istəmir, nə vergi, nə gömrük güzəştləri tətbiq etmir, əvəzində isə inzibati yolla qiyməti tənzimləməyə çalışır".

**Tarif Şurasının müəyyənləşdirdiyi yeni qiymətlərin nə zaman tətbiq olunacağına gəlincə, bu barədə səhiyyə nazirinin müavini Elsevər Ağayev mətbuata açıqlama verib. Nazir müavini bildirib ki, yeni satış qiymətləri sentyabr ayının 15-dən qüvvəyə minəcək:** "Çünki hazırlıq işlərinin, o cümlədən əczaçılıq subyektləri tərəfindən dərman qutularının üzərində yeni qiymətlərin qeyd olunması, dərman qalıqlarının yenidən qiymətləndirilməsi, istehsalçılarla hesablaşmaların aparılması və digər hazırlıq işləri müəyyən zaman tələb edir. Qərar qüvvəyə mindikdən sonra tənzimlənən siyahıya daxil olan dərman vasitələrinin 20%-nin qiyməti 3 dəfədən çox, 40%-dən çoxunun qiyməti isə 2 dəfədən çox aşağı salınacaq. Ümumilikdə isə tənzimlənən dərman vasitələrinin 90%-nin qiyməti düşəcək. Beləliklə, Azərbaycanda aptek şəbəkəsinin fəaliyyəti artıq tamamilə yeni müstəviyə keçir ki, bu da əczaçılıq müəssisələrinin dərmanların qiyməti ilə deyil, xidmət keyfiyyəti ilə rəqabət aparmasına şərait yaradacaq. Eyni zamanda Tarif Şurasının qərarı ilə dərman preparatlarının qiymətinin tənzimlənərək aşağı salınması dövlət müəssisələri tərəfindən bu preparatların alınmasına çəkilən xərclərin optimallaşdırılmasına, əldə edilən qənaət hesabına güzəştli kateqoriyadan olan və stasionarda müalicə alan əhaliyə pulsuz verilən dərmanların çeşidinin artımına şərait yaradacaq. Bu isə öz növbəsində əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin artırılmasına, tibb müəssisələrinin aparıcı farmakoloji şirkətlərin istehsal etdiyi daha müasir dərman vasitələri ilə təchiz olunmasına müsbət təsir edəcək".

**Dərmanların keyfiyyətinə nəzarətin gücləndirilməsinə gəlincə, E.Ağayev bildirib ki, bunun üçün Səhiyyə Nazirliyində "Dərman vasitələri ilə təchizatın yaxşılaşdırılması və əczaçılıq fəaliyyəti sahəsində nəzarətin gücləndirilməsi üzrə Tədbirlər Planı" təsdiq edilib:** "Burada Tarif Şurası ilə sıx əməkdaşlığın davam etdirilməsi, apteklərə daxil olan həkim reseptlərinə nəzarətin təmin edilməsi, standart formaya uyğun olmayan reseptlər üzrə dərmanların satışının qadağan olunması, ən vacib dərman preparatlarının və tibbi ləvazimatların siyahısına yenidən baxılması və çeşidinin genişləndirilməsi barədə təkliflərin qısa zaman ərzində hazırlanması daxildir. Eyni zamanda tədbirlər planında dərman vasitələrinin keyfiyyəti və təminatı sahəsində olan müraciətlərin qəbulu üçün Elektron səhiyyə, "qaynar xətt" və digər vasitələrlə gələn müraciətlərin dərhal təhlil olunaraq müvafiq tədbirlərin həyata keçirilməsi və sair tədbirlər nəzərdə tutulub".

**Nazir müavini onu da bildirib ki, gələn ilin mart ayına kimi bütün dərmanların qiymətləri üçün vahid hədd müəyyən ediləcək:** "İlkin mərhələdə bu siyahıya əhali arasında ən çox rast gəlinən xəstəliklərin müalicəsi üçün dərman preparatları daxil edilib. İlin sonuna qədər Tarif Şurası tərəfindən Səhiyyə Nazirliyində qeydiyyatdan keçən dərman preparatlarının böyük əksəriyyətinin, gələn ilin mart ayına kimi isə bütün preparatların qiymətlərinin tənzimlənməsi tamamlanacaq".

❑ **Nərgiz LİFTİYEVA**

# İran "Royal Bank"da batan pullarını geri istəyir

Ekspertlər bildirirlər ki, bu, beynəlxalq skandala səbəb ola bilər...




**İran bir neçə il əvvəl "Royal Bank"da batan pulları geri istəyir. İran-Azərbaycan hökumətlərarası komissiyanın katibliyinin rəhbəri Mehdi Möhtəşəmi bununla bağlı dolayısı ilə danışıb.**

"Trend"ə müsahibə verən Mehdi Möhtəşəmi deyib ki, sanksiyaların ləğvindən sonra Azərbaycan bank sisteminin əməkdaşlıq üçün geniş imkanları olacağını düşünür: "Əlbəttə, bizim bir sıra problemlərimiz də var. Azərbaycan banklarında iranlıların müəyyən miqdarda vəsaiti bloklaşdırılıb. Məlumdur ki, Azərbaycanda fəaliyyət göstərən bir bank- "Royal Bank" iflas edib. Həmin bankda İranın İxracat İnkişaf Bankının və hüquqi şəxslərinin vəsaitləri var idi ki, biz Azərbaycanın Mərkəzi Bankı və hökumətindən bu problemi həll etməyi istəmişik. Ümid edirik, problem tezliklə öz həllini tapacaq. Həmçinin Azərbaycan hökumətinin, xüsusilə də Bakı Şəhər İcra Hakimiyyətinin "Bank Melli İran"ın binası ilə bağlı ölçü götürməsi üçün əməkdaşlığa ehtiyac var. Bu kimi məsələlər Azərbaycan və İran arasında bank sahəsində aparılan müzakirələrin bir hissəsidir ki, bunlarla bağlı yaxşı nəticələr də əldə olunub. İki ölkənin bank sisteminin fəal və etibarlı olması digər sahələrdə də əməkdaşlığın inkişafına təsir göstərəcək".

**Ekspertlər isə bildirirlər ki, İranın müflis olmuş bankla bağlı problemi gündəmə gətirməsi ciddi məsələdir:** "Burada çox həssas hüquqi məqam var. İran "Royal Bank" vasitəsilə sanksiyaları dəlməyə çalışıbsa və Azərbaycan tərəfi də buna göz yumubsa, bu, beynəlxalq skandalla müşahidə oluna bilər. Yəni sanksiyalar qüvvədə olan zaman işlər görülüb. Bundan əlavə, İranın vəsaitlərini hansı hüquqi-normativ aktlara görə bu bankda yerləşdirməsini bilmək vacibdir. Əgər müqavilələr hüquqa uyğun bağlanıbsa, onda İran beynəlxalq məhkəməyə müraciət edə, vəsaitlərini geri tələb edə bilər".

Qeyd edək ki, "Royal Bank"la bağlı problem bir neçə il öncə yaranmışdı. 2012-ci ildə lisenziyası geri alınan və bağlanan "Royal Bank"da minlərlə İran vətəndaşının depozitləri vardı. Lakin onların pulları öz adlarına yox, saxta adlarla rəsmiləşdirilmişdi. Bu da onlara bank bağlanandan sonra bəlli olmuşdu.

Həmçinin "Royal Bank"ın bağlanmasının arxasında İran amilinin dayandığı haqda mətbuat dəfələrlə yazmışdı. Bildirilirdi ki, İran şirkətləri və beynəlxalq sanksiyaların təsiri altında olan rəsmiləri sanksiyalardan yayınmaq üçün bu bankdan istifadə ediblər. Bankın İranla yaxın işbirliyini onun əmanətçiləri arasında minlərlə iranlının olması da təsdiqləyir. Lakin məsələnin ən qalmaqallı tərəfi odur ki, bankda minlərlə İran vətəndaşının pulları saxta adlarla saxlanılıb. Mərkəzi Bankın bu maxinasiyadan necə vaxtında xəbər tutmaması təəccüblü və müəmmalı görünür.

❑ **RÖYA**

**“Lombard kreditlərinin havadarları bankların və digər kredit təşkilatlarının himayəçilərindən də güclüdür”. Ekspert Əkrəm Həsənov ölkədə lombard kreditlərinin qanunsuz olması ilə bağlı danışarkən belə deyib. Onun sözlərinə görə, lombard fəaliyyəti üçün hər hansı lisenziya, icazə tələb olunmaması bu sahədə özbaşınalığı genişləndirir: “Kim istəsə, lombard açıb kredit verə bilər. Kredit təşkilatlarından fərqli olaraq, lombardların fəaliyyəti üçün hər hansı qayda da yoxdur.**

# “Lombardlar qanunsuz bank fəaliyyəti ilə məşğuldur”

## Ekspert Mərkəzi Bankın bu məsələ ilə bağlı tədbirlər görməli olduğunu deyir

Qanunvericilikdə lombardın heç anlayışı da yoxdur, o da ola tənzimlənməsi. Necə istəyirlər, elə də fəaliyyət göstərirlər, məsələn, kredit müqaviləsinin şərtlərinin müəyyənləşdirilməsində, girovun qiymətləndirilməsində və saxlanmasında və sair məsələlərdə vətəndaş lombard qarşısında acizdir. Düzdür, Mülki Məcəllənin 37-ci fəsli, ”Borc" fəsli kredit təşkilatları ilə yanaşı, onlara da şamil olunur. Amma həmin fəslin tələblərinə heç banklar əməl etmir, o da ola lombardlar. Məsələn, dəfələrlə qeyd etdiyim kimi, Məcəllənin tələbinə zidd olaraq faizləri ildə deyil, ayda bir dəfə tuturlar və sair. Bütün bunlara baxmayaraq, lombardların fəaliyyəti bir qayda olaraq, qanunsuzdur. Ona görə ki, onların əksəriyyətinin kapitalı, öz vəsaiti gülünc məbləğdir, 2 manatdan 200 manatadək təşkil edir. Yəni bunun hesabına kredit verirlər".

**Ekspertin sözlərinə görə, ümumən isə belə çıxır ki, bizim lombardlar kreditləri öz vəsaitləri deyil, cəlb edilmiş vəsaitlər hesabına verirlər:** “Yəni birindən aşağı faiz dərəcəsi ilə borc alıb, digərinə yüksək faiz dərəcəsi ilə kredit verirlər. Başqa sözlə, əslində bizim lombardlar qanunsuz bank fəaliyyəti ilə, yəni cəlb edilmiş pul vəsaitləri hesabına kredit fəaliyyəti ilə məşğul olurlar. Bunun üçün onlar ən azı Mərkəzi Bankdan bank olmayan kredit təşkilatı kimi lisenziya almalı idilər. Mərkəzi Bank da onlara nəzarət etməli idi. Bəs Mərkəzi Bank hara baxır? ”Lombard" adı altında de-fakto bank fəaliyyəti ilə məşğul olan qurumlara qarşı niyə tədbir görmür? Yaxşı, bəs lombardlar bu vəsaiti haradan əldə edir? Böyük ehtimalla əksər hallarda elə banklardan. Təxmin edirəm ki, bu proses bundan sonra daha da güclənəcək. Ona görə ki, Mərkəzi Bank parlament seçkiləri qabağı real tədbirlər görmək, məsələn, bankların hamısına manatda ucuz kredit vermək əvəzinə həm xalqı, həm də iqtidarı aldadır. Populist addımlara əl ataraq banklara qanunsuz göstəriş verib ki, kreditlər üzrə faiz dərəcələrini aşağı salsınlar. Təbii, bankların bu göstərişdən yayınmaq üçün kifayət qədər vasitəsi var: krediti xarici valyutada vermək, “şapka” almaq və sair. O cümlədən əhaliyə krediti lombardlar vasitəsilə vermək. Yəni banklar kreditləri aşağı faiz dərəcəsi ilə lombardlara verəcək, lombardlar isə yüksək faiz dərəcəsi ilə əhaliyə. Bu baxımdan lombardların qanunsuz fəaliyyəti hazırda xüsusi əhəmiyyət kəsb edir və Mərkəzi Bankla yanaşı, hüquq-mühafizə orqanları, habelə İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti ciddi tədbirlər görməlidir. Ümumiyyətlə isə lombardların fəaliyyətinə dair qanun, ən azı qaydalar qəbul edilməlidir".




**Ə.Həsənov qeyd edib ki, bəzi banklar da lombard kreditləri verir və bu da qanunsuzdur:** “Belə ki, Mərkəzi Bankın ”Banklarda kreditlərin verilməsi Qaydaları"nın 4.1.7-ci bəndinə əsasən təminat kreditlərin qaytarılması üçün yeganə və əsas mənbə olmamalıdır, kreditin qaytarılması üçün əsas borcalanın sağlam maliyyə vəziyyəti və fəaliyyəti dövründə əldə etdiyi pul vəsaiti olmalıdır. Lombard krediti üzrə isə əksinə, girov qoyulan təminat kreditin qaytarılmasının yeganə və əsas mənbəyidir. Amma əlbəttə, bankların bütün qanunsuzluqları qarşısında bu heç nədir".

❑ **RÖYA**

# Bakıda evi erməni tərəfindən ələ keçirilən vətəndaşın dramı...



## “Təsəvvür edirsiniz, məmurlar ermənini, həm də qanunsuzluq edən ermənini müdafiə edirlər...”

**O, artıq üç ildir ki, küçələrdədir. Daha çox Dənizkənarı Milli Parkın ərazisində görmək olar, istirahət etmir, qəzet satır. Gün çıxandan gün batana qədər qəzet satan 65 yaşlı bu adam gecə getməyə yeri olmadığından, yay-qış elə parkın ərazisində də gecələyir. Getməyə yeri yoxdur deyəndə... Paytaxtda, Bakıda yaşadığı evini bir neçə il əvvəl erməni əlindən alıb. Onu isə üç il əvvəl döyüb küçəyə atıblar. Hazırda iş məhkəmədədir...**

**Snequrenko Aleksey Petroviç** erməni tərəfindən başına gələnləri hərdən qəzəblə, hərdən də ağlayaraq danışır... “Uşaq evində böyümüşəm, heç kimim yoxdur. Bu evi isə işlədiyim yerdən 1978-ci ildə almışam. Xətai rayonu, Telnov küçəsində, 18 saylı evdə, mənzil 99-da yaşayırdım”. Bundan sonra 1997-ci ildə o, küçə davasında döyülən qadını müdafiə edir, davanın nəticəsi olaraq xuliqanlıqda təqsirləndirilir və 5 il müddətinə həbs edilir. Elə həbsxanada da sonradan evini ələ keçirəcək erməni ilə tanış olur: “O, Makarov Yakov Alekseyeviç idi, sonradan soyadını dəyişmişdi, əsl soyadı Simonyan idi”. Makarov onun vəziyyətini bildikdən sonra yanına gələn anasına həmin ev barədə danışır. Nəticədə qadın evin qapısını sındırıb orada yaşamağa başlayır: “Makarov da 1998-ci ildə həbsdən çıxdı. Mən 2003-cü ildə həbsdən çıxanda evimdə onunla anasını gördüm. Məni döyüb evdən qovdular. Bir neçə dəfə evə getdim, hər dəfəsində məni qovdular. Sonra polisə şikayət edəcəyimi deyəndə, evə buraxdılar. Otağın birində mən, birində onlar yaşamağa başladıq. Bütün ev əşyalarımı satmışdılar. Sonra isə bir gün məlum oldu ki, mən evi onlara bağışlamışam. Bunu təsadüfən telefon pulunu ödəmək istəyəndə bildim. Gedib onlardan soruşanda, Yakov məni vurdu, döyüb qapıdan çölə çıxardı. Bundan sonra mən aylarla küçələrdə qaldım. Hərdən evə gedirdim, bir müddət qalırdım, sonda yenə dava salıb məni bayıra atırdılar. 2012-ci ildən isə küçələrdə qalıram. Artıq məni evə buraxmırlar. Məni dəfələrlə hədələyiblər, qorxu altında saxlayırlar. Yaxşı insanlar qarşıma çıxmasaydı, heç məhkəməyə müraciət edəcək halda deyildim”.

**Onun bu vəziyyəti bulvara gəzintiyə gələn, qəzet alan insanların diqqətini cəlb edir və ona kömək edirlər:** “İndi mənə vəkil tutublar, işi məhkəməyə çıxarmışam. Makarovun atası da belə ev fırıldağı üstündə Rusiyada öldürülüb. Makarov özü hazırda Rusiyada yaşayır, ancaq tez-tez gəlib anasını görür və məni tapıb hədələyib, qayıdıb gedir. O, məni öldürəcəyi ilə hədələyir. Sonuncu dəfə 2015-ci ilin fevralında mənə işgəncə verib, bütün bədənim təpik, yumruq zərbələrindən qaralmışdı. 102 xidmətinə neçə dəfə zəng etdik, düz-əməlli araşdırılmadı. Təsəvvür edirsiniz, məmurlar ermənini, həm də qanunsuzluq edən ermənini müdafiə edirlər. Deyirlər ki, faktla bağlı cinayət işi qaldırılacaq, qanunla belə olmalıdır, amma etmirlər. Bu ilin yanvarında bağışlanmanın qanunsuz hesab olunması, ləğvi ilə bağlı məhkəməyə müraciət etmişəm. Xətai Rayon Məhkəməsi işi başdansovdu etdi, məhkəmə adına bir şey olmadı. Qapının dalında qaldım, bir dəfə içəri çağırmadılar. Sonunda da məhkəmə, hakim Namidar Misirzadə iddiamı təmin etmədi. Ancaq mənim haqlı olduğumu sübut edən nə qədər şahid var idi. Qarşılaşdığım nə qədər məmur ölkə vətəndaşını deyil, qanunsuzluq edən ermənini müdafiə etdi. Bu, qanunsuzluq idi, özbaşınalıq idi. Onların bunu etməkdə məqsədi nə idi? Prezidentlə görüşmək imkanım olsa, bunları ona deyərdim”.


AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN
XƏTAİ RAYON POLİS İDARƏSİ

Bakı şəhəri, E.Əliyev küçəsi 4 Faks (+99412) 422-02-02

9/11 2882/C-04 «20» 02 2015-ci il

Nəsimi rayon Nizami küçəsi 121,...
19-da yaşayan Cəfərova Nata...
Muradxan qızına

Hörmətli Natavan xanım !

Sizin 12.02.2015-ci il tarixdə Xətai RPİ-nə tanışınız Snicurenko Aleks... Petroviçin Makarov Yakov Alekseyeviç tərəfindən döyülməsi barədə Xətai RPİ-... 34-cü PB-də aparılan araşdırma ilə əlaqədar şikayətiniz araşdırılan zaman müəyy... olunmuşdur ki, material üzrə 34-cü PB-nin baş təhqiqatçısı polis mayoru Ə.Cabbar... tərəfindən ərizənizdə qeyd edilən fakt üzrə araşdırma aparılaraq material üzrə cina... işi başlanılması üçün 17.02.2015-ci il tarixdə 9/34-605 saylı məktubla Xətai ray... prokurorluğuna göndərilmişdir.

Hörmətlə,

Xətai RPİ-nin rəisi
polis polkovniki Muradəli Babaye...

İcraçı:
B.Hacıyev

**Snequrenko Petroviç bildirir ki, hazırda iş Apelyasiya Məhkəməsindədir:** “Avqustun 11-də məhkəməm olacaq. Sədr İman Nağıyev, hakim Vüqar Həsənovdur. Məhkəmədən ədalətli qərar, ədalətin bərpa olunmasını gözləyirəm. 65 yaşda küçələrdə qalıram, soyuq payız gəlir. Bu qanunsuzluğa göz yummasınlar. Erməni Makarov evi anasının adına keçirib. Bu evin mənim olması ilə bağlı nə qədər sübutlar var”.



**Sonda o, razılıq da edir. Ona bu üç ildə kömək olan, acından ölməməsi üçün yardım edən insanlara dua edir:** “Onlardan biri də Bulvar İdarəsinin rəhbəri Nazim müəllimdir. Eşidib biləndə ki, burada yaşayıram, mənim yeməklə təmin olunmağıma şərait yaratdı. Hər gün kafelər mənə yemək, çay verirlər. Düzdür, utanıram hər dəfə gedib kafelərin qapısını döyüm. Özüm qəzet satıb bir neçə manat qazanıram. Ancaq bu, ev tutmağım üçün kifayət etmir, qışda da küçədə qalmışam illərlə. Bəlkə dövlət başçısı İlham Əliyevin də xəbəri olacaq vəziyyətimdən. Kömək etsin mənə, hüququmu bərpa etməyimə köməklik etsin. Axı mən də bu ölkənin vətəndaşıyam...”

❑ **Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 170 (6198) 6 avqust 2015





**Gələn ay Nyu-Yorkda BMT Baş Məclisinin yubiley sessiyası çərçivəsində Azərbaycan və Ermənistan prezidentlərinin görüşü olacaq. Bəllidir ki, belə bir təşəbbüs ABŞ-a məxsusdur. Prezidentlərin sonuncu Paris görüşünün ardınca (27 oktyabr 2014) bu, sayca 27-ci birbaşa təmas olacaq.**
**Bəzi nikbin siyasi müşahidəçilər hesab edir ki, Rusiya prezidenti Vladimir Putinin də eyni vaxtda Nyu-Yorkda olması təmasa xüsusi rəng qata, hətta Rusiya liderinin iştirakı ilə hansısa ilkin anlaşma da əldə oluna bilər.**

# Qarabağ təşəbbüskarlığı Rusiyadan Qərbə keçsə...

## O halda həll modeli hüquqi qüvvəsi olmayan "Madrid prinsipləri"nə əsaslanacaq, yoxsa BMT, ATƏT, AŞ PA, AB qətnamələrinə? Bakı hadisələrin hər iki inkişaf ssenarisinə hazırlaşmaq zorundadır...

Lakin o da var ki, Rusiya ilə Qərb arasında Ukraynaya görə gərgin atmosfer davam edir. Hətta son məlumatlara görə, Kremlə qarşı sanksiyalar daha da gücləndiriləcək və yeniləri tətbiq ediləcək.

*****

Moskvali **politoloq Vladimir Çibulkoisə** isə mətbuta açıqlamasında bildirib ki, Qərb Rusiyaya öldürücü zərbə vurmağa hazırlaşır: "Hazırda Putin ya dünya liderlərinin şərtlərini qəbul edəcək, ya da ona qarşı yeni sanksiyalar tətbiq olunacaq". Onun sözlərinə görə, neft qiymətləri və zəifləyən rubl Rusiya siyasi sinfinə ciddi dərəcədə təzyiq edib: "Putin ya dünya liderlərinin şərtlərini qəbul edəcək, ya da ona qarşı yeni sanksiyalar tətbiq olunacaq. Buna da Rusiya tab gətirməyəcək. Çünki söhbət ölkənin bank sisteminin və neft ixracının bütöv bloklanmasından gedir. Qərb artıq bu addıma qərar verəcək".

Belədə Qarabağ kontekstində məntiqli sual ortaya çıxır: əcəba, konfliktin həllində təşəbbüskarlıq, patronajlıq bütünlüklə Qərbə keçsə və Rusiyanın məsələyə təsir imkanları minimuma ensə, problemin həlli hansı istiqamətdə gedəcək, Azərbaycanın köklü maraqları nəhayət, nəzərə alınacaqmı?

Doğrudur, beynəlxalq hüquq Azərbaycanın tərəfindədir və bu, bizim danışıqlarda vazkeçilməz üstünlüyümüz olaraq qalır. Münaqişənin ölkəmizin xeyrinə həlli üçün hüquqi baza da mənafeyimizə cavab verir. Bu - BMT Təhlükəsizlik Şurasının, Avropa Şurası Parlament Assambleyasının, Avropa Parlamentinin, ATƏT və NATO Parlament assambleyalarının, İslam Əməkdaşlıq Təşkilatının Dağlıq Qarabağa dair ədalətli, Ermənistanı təcavüzkar kimi tanıyan qətnamələridir, BMT Nizamnaməsi, ayrı-ayrı ölkələrin parlamentlərinin qərarlarıdır.

Dağlıq Qarabağda "referendum" nəzərdə tutan "Madrid prinsipləri"ndən fərqli olaraq, bunlar konkret hüquqi sənədlərdir və onları Azərbaycanın razılığı olmadan heç kim ləğv edə bilməz. Qalır bu sənədlərin gerçəkləşməsi.

*****

İş də ondadır ki, vasitəçilik imkanları tamamən Qərbə, ABŞ-a keçəndən sonra həll modeli tərəflərin qəbul etmədiyi, daha çox da Azərbaycan üçün "gec partlayacaq mina" effekti daşıyan "Madrid prinsipləri"nə əsaslanacaq, yoxsa az yuxarıda sadalanan beynəlxalq hüquqi sənədlərə?

Bütün hallarda soyuq məntiq diktə edir ki, rəsmi Bakı indidən bu variantlarla bağlı tədbirli olmalı və hadisələrin hər iki inkişaf ssenarisi üzrə inkişafına hazırlıq görməlidir. Unutmaq olmaz ki, nüfuzlu beynəlxalq erməni lobbisinin demokratiya paytaxtları ilə işləməkdə çox böyük təcrübəsi var. Azərbaycana təcavüzə məruz qaldığı halda ölkəmizə qarşı ABŞ Konqresinin "Azadlığa dəstək aktı"na əlavə edilən və hələ də ləğv olunmayan 907-ci düzəliş məhz erməni lobbisinin fəaliyyətinin nəticəsi idi.

*****

**Bu xüsusda hərbi ekspert Üzeyir Cəfərovun 1 in.am erməni portalına müsahibəsində söylədiyi fikirlər də maraq doğurur. Ekspertin qənaətincə, əgər Rusiya olmasaydı, Azərbaycan çoxdan öz ərazi bütövlüyünü bərpa eləmiş, milyonlarla vətəndaş həm o tərəfdən, həm də bu tərəfdən iztirabdan qurtulmuşdu:** "Bəli, müvəqqəti olaraq bizim ərazilərimiz işğal altındadır. Ancaq hamı başa düşür ki, indi 21-ci əsrdir və heç bir ölkə bu cür vəziyyətlə barışmayacaq. Və proses də ona doğru gedir ki, çox tezliklə hər şey əvvəlki vəziyyətinə qayıtmalıdır. Bu, necə olacaq, proqnozlaşdırmaq çətindir, ancaq təki qısa zamanda və minimal itkilərlə reallaşsın".



**Üzeyir Cəfərov: "Rusiya olmasaydı, Azərbaycan öz ərazi bütövlüyünü çoxdan bərpa eləmişdi"**

**Üzeyir Cəfərova görə, Rusiya Qarabağ məsələsində heç vaxt səmimi olmayıb:** "Bunu Azərbaycanda da, Ermənistanda da, hər yerdə bilirlər. Mənim fikrimcə, Rusiyaya, hətta ABŞ və Fransaya da ara-sıra cəbhə xəttindəki gərginlik sərf edir. Onlar bundan məharətlə istifadə edərək Azərbaycana və Ermənistana silah-sursat verirlər. Şəxsən mən nə ATƏT-in Minsk Qrupuna, nə də onun həmsədrlərinə inanıram. 20 ildən çox müddətdə onlar nəyə "qadir olduqlarını" sübut elədilər. Və heç kimə də sirr deyil ki, amerikalı həmsədr, cənab Ceyms Uorlik Qarabağ nizamlanması tarixinə az qala hər həftə bu mövzuda yazdığı və heç bir nəticəyə gətirməyən "şedevr" statusları ilə düşəcək. Əgər Uorlikə inansaq, Qarabağda çoxdan sülh və əmin-amanlıq bərqərar olub! Əslində isə o, yoxdur və heç vaxt da olmayıb. Düşünürəm ki, bunu Azərbaycanda da, Ermənistanda da anlamağın zamanı çatıb".

**Hərbi ekspert Dağlıq Qarabağın statusunun önə çıxarılmasını perspektivsiz hesab edir:** "İndi də tərəflərə az qala 20-30 dəfə müzakirə edilmiş bir variant *(paket həll - red.)* təklif olunur. Əgər məsələdə hər hansı irəliləyiş yoxdursa, hansı statusdan söhbət gedə bilər? Ona qalsa, Azərbaycan Dağlıq Qarabağa dünyada ən yüksək status vəd edib və indi də edir. Doğrudanmı aydın deyil ki, Azərbaycan beynəlxalq səviyyədə tanınmış ərazilər daxilində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək? Bu barədə dəfələrlə Azərbaycan prezidenti, müdafiə və xarici işlər nazirləri bəyan ediblər".

**O ki qaldı ədaləti Qərbdən gözləməyin mümkünlüyünə, Üzeyir Cəfərov bütün hallarda öncə BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağa dair qətnamələrinin ciddi şəkildə yerinə yetirilməsini əsas şərt sayır:** "Bu qətnamələrdə erməni silahlı birləşmələrinin Azərbaycan ərazilərindən çıxmalı olduğu aydın və konkret şəkildə əksini tapıb. Yalnız ondan sonra başqa məsələlərə baxıla bilər. Öncə insanlar öz daimi yaşayış yerlərinə geri dönməlidir. Məhz bundan sonra status və sülhməramlı qüvvələr məsələsi də daxil, yerdə qalan digər məsələlər müzakirə predmeti ola bilər".

# Rus kəşfiyyatçıları Ermənistanda təlimlərə başladı



**Rusiyalı kəşfiyyatçılar ölkələrinin Ermənistandakı hərbi bazasında sürətli atəş təlimlərinə başlayıblar. Bu barədə Rusiya Silahlı Qüvvələri Cənub-Şərq Hərbi Dairəsinin mətbuat xidməti məlumat yayıb (virtualaz.org). "Rusiyanın SQ Cənub-Şərq Hərbi Dairəsinin Ermənistandakı hərbi bazasında yüksək dağlıq ərazidəki "Kamxud" poliqonunda kəşfiyyat bölüklərinin səhra şəraitində sürətli atış üzrə xüsusi kursları təşkil olunub. Döyüş atıcılığı üzrə xüsusi təlimlərdə 300-dən çox hərbi qulluqçu iştirak edir" - deyə məlumatda bildirilir.**

Kəşfiyyat bölüyünün döyüşçülərinə sürətli atış zamanı silahla davranış qaydaları, dəqiq nişan alma üsulları, "AK-74" avtomatlarından tək atəşin xüsusiyyətləri öyrədilir. Kəşfiyyatçılar müxtəlif hədəflərə uzanıqlı halda, dizi üstə oturmuş halda, ayaq üstə, sağ və sol əllə, özü də mümkün qədər qısa müddət ərzində, sürətlə atəş açmağı öyrənirlər. Onlara həmçinin döyüş zonasında yerlərini nəzəri cəlb etmədən dəyişməyin, hərəkətdə ola-ola bir hədəfə bir neçə nöqtədən atəş açmağın yolları təlim edilir.

Bundan başqa, döyüşçülər taktiki, mühəndis, tibbi hazırlıq keçirlər. İsti havada qayalıq-dağlıq ərazilərdə, ekstremal şəraitdə hərbi texnikanı idarə etməyi öyrənirlər.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

# İsti narahatlıq: yerdə insan, suda balıq təntiyir...

**Son vaxtlar dünyada olduğu kimi, ölkəmizdə də anomal hava şəraiti hökm sürür. Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosunun direktor əvəzi Gülşad Məmmədova "Yeni Müsavat" açıqlamasında bildirib ki, anomal hava şəraiti avqustun 6-dək davam edəcək. Onun sözlərinə görə, ən isti hava şəraiti Naxçıvan və Mərkəzi Aran rayonları ərazisində qeydə alınıb:**



"Həmin ərazilərdə 43 dərəcə isti hava şəraiti olub. Paytaxt Bakıda və Abşeron yarmadasında qeydə alınan havanın temperaturu iqlim normasından 3-4 dərəcə çoxdur.

Avqustun 6-dan başlayaraq havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 3-5 dərəcə aşağı düşəcək".

G.Məmmədova qeyd edib ki, əvvəlki illərdə də avqust ayında bu cür hava şəraiti müşahidə edilib.

## Günvurma

İsti hava şəraiti əhali arasında günvurmaların sayını artırıb. Çoxlarına məlumdur ki, günvurma əksər hallarda başı açıq vəziyyətdə xeyli müddət gün altında qaldıqda baş verir. Günəşin yandırıcı şüalarının təsirindən baş beyinə qan axını artır və beyində qan dövranı pozulur. Bu zaman həmin şəxsdə zəiflik, ürəkbulanma, başgicəllənmə, qulaqlarda küy, təngnəfəslik, temperaturun birdən-birə qalxması halları yaranır. Bəzən bunun nəticəsində qıcolmalar, huşun itirilməsi baş verir. Bir çoxlarında bu əlamətlər dərhal üzə çıxırsa, orqanizm fərqliliyindən asılı olaraq bəzilərində açıq günəş altında çox qaldıqdan bir neçə saat sonra, evə gəldikdə baş verir.

Mütəxəssislər bildirirlər ki, günvurma təkcə günün altında olduqda baş vermir, isti havanın təsirindən də yaranır. Belə ki, uzun müddət isti yerdə qaldıqda bədəndəki su buxarlanır və yaranan maye çatışmazlığı nəticəsində bu hal baş verir. Günvurmanın simptomları sadə yorğunluqdan başlayaraq, huşun itirilməsinə qədər ola bilər. Bəzən günvurma ölümlə də nəticələnir.

## Can alan istilər

Günvurmadan bu il dünyada rekord sayda insan dünyasını dəyişib. Anomal istilər dünyanın bir çox ərazilərində özünü göstərməkdə və canlar almaqda davam edir. Yüksək temperatur böhranı daha çox Hindistanda qeydə alınıb. Baş verən anormal istilər nəticəsində 29 may tarixinə olan məlumata əsasən 1.800 nəfərdən çox şəxs dünyasını dəyişib. Bu ölkədə ən yüksək temperatur əsasən mart-iyul aylarında müşahidə edilib. Ölkənin bütün bölgələrində ölüm halları qeydə alınıb. Xüsusən də cənub ştatlarında daha çox ölüm halları diqqət çəkib. Belə ki, Andhra Pradeş ştatında təxminən 1.490 nəfər, həmin ştatın sərhədində yerləşən Telanqanada isə 440 nəfər anormal istilərin qurbanı olub. Qeyd etdiyimiz ərazilərdə 47 dərəcə isti olub.

Baş verən istilər böyük şəhərlərdə ciddi problemlər yaradıb. Belə ki, istilərdən qorunmaq üçün insanların soyuducu sistemlərindən istifadə etməsi birdən-birə dəfələrlə artıb və şəhərlərdə elektrik enerjisinin verilməsində fasilələr yaranıb.

Pakistanda da ölənlərin sayı 1400 nəfəri keçib.

## Bəs Azərbaycanda vəziyyət necədir?

Səhiyyə Nazirliyi Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının baş həkim müavini Oqtay Şahmalıyevin mətbuata verdiyi açıqlamasına görə, ölkədə günvurmadan ölüm halı qeydə alınmayıb. Onun sözlərinə görə, mayın ortalarından avqustun əvvəlinədək stansiyaya günvurma ilə əlaqədar 38 nəfər müraciət edib. Onlardan 13 nəfərinin vəziyyəti yaxşı olmadığından xəstəxanaya göndərilib.

**Tibb elmləri doktoru, professor Adil Qeybulla günvurmadan qorunmağın yolları barədə "Yeni Müsavat"a danışaraq öz tövsiyyələrini bildirib:**

"İnsan bədəni üçün normal temperatur 36-37 dərəcədir. Orqanizmdə temperaturun normadan az və ya çox olması təhlükəlidir. Bütün bu prosesləri beyində termorequlyasiya mərkəzi tənzimləyir. Belə ki, soyuq havada dəridə, damarlarda sıxılmalar olur, bu da kömək edir ki, bədən normadan artıq nə qızsın, nə də soyusun. İsti havada isə dəridə genişlənmə baş verir ki, bunun da nəticəsində buxarlanma yaranır. Lakin həddindən artıq soyuq və ya isti hava şəraiti beyində olan termorequlyasiyanın pozulmasına səbəb olur və bədəndəki temperatur ya tamamilə düşür, ya da həddindən artıq yuxarı qalxır. Orqanizmimiz artıq bunu tənzimləyə bilmir. Nəticədə orqanizmdə olan qanın dövranı pisləşir. Bu zaman hüceyrələrdə də proses pozulur.

Gün vuran şəxsə ilk yardım kimi əvvəlcə onu sərin bir yerə aparmaq lazımdır. Daha sonra zərərçəkmiş insanın alnına, bədəninə yaş dəsmal qoymaq və dərhal həkimə müraciət etmək lazımdır".

**A.Qeybulla xüsusilə vurğulayıb ki, ölümlə nəticələnə biləcək günvurma zamanı ilk yardımın düzgün aparılması böyük əhəmiyyətə malikdir:** "Düzgün aparılan ilk tibb yardım demək olar ki, zərəçəkmişin xilası deməkdir. Arzuolunmaz halların baş verməməsi üçün əvvəlcədən ehtiyatlı olmalı, bayıra çıxarkən baş örtüklərindən istifadə etməli, hamilə qadınların, xüsusən uşaqların gün altında çox qalmasının qarşısı alınmalıdır, çalışmaq lazımdır ki, hər zaman yanında su ehtiyatı saxlanılsın".

## İstilər Xəzər dənizindəki canlıları da məhv edir

Rusiya Balıqçılıq Qərbi Xəzər Ərazi İdarəsinin Mahaçqala rayonlararası şöbəsinin rəisi Ənvər Zahidov Rusiya mətbuatına verdiyi açıqlamasında bildirib ki, anormal isti hava şəraiti ilə əlaqədar olaraq Xəzər dənizində balıqların kürtləvi ölümü baş verib. Ekspertlər də bildirirlər ki, Xəzər dənizinin Azərbaycan sektorunda olan hissəsi daha az dərinliklərlə xarakterizə olunduğundan burda suyun hərarətinin kəskin yüksəlməsi oksigen qıtlığı yaradır, nəticədə balıqlar buna tab gətirməyərək məhv olurlar. Balıqların bir qismi də öz miqrasiya yolunu dəyişib və daha dərin suları seçib və ya şimala doğru gediblər.

## Anomal istilərə səbəb nədir?

Rusiyalı alim, geologiya-mineralogiya elmləri doktoru Vladimir Sıvorotkinin dediyinə görə, anomal hava şəraitinə səbəb Yerin təkində baş verən proseslərdir. Alimin sözlərinə görə, bu proseslərin əsasında təkcə insan fəaliyyəti deyil, ilk növbədə Yerin nüvəsində gedən dövrü proseslərdir. O qeyd edib ki, hazırda üç böyük ozon dəliyi var. Onlar Yaponiya, Cənub-Qərbi Sibir və Qara dəniz sahilləri üzərində yerləşir. Bu səbəbdən son vaxtlar həmin bölgələrdə çox güclü istilər baş verir.

Mütəxəssislər bildirirlər ki, ölkəmizdə isti hava şəraiti iqlimdən aslı olaraq uzunmüddətli olmur. İsti hava qısa zamandan sonra küləkli hava şəraiti ilə əvəzlənir.

Ölkə ərazisində ən güclü istilərə gəldikdə isə, məlumatlara əsasən bildirək ki, bu cür hava şəraiti 2000-ci ilin avqust ayında və 2011, 2014-cü illərdə müşahidə olunub. Qeyd etdiyimiz kimi, həmin vaxtlar da isti hava şəraiti tez bir zamanda küləkli hava ilə əvəzlənmişdi.

Qeyd edək ki, bugünlərdə ölkədə müşahidə edilən isti hava şəraiti ilə əlaqədar Nəqliyyat Nazirliyinin "Azəryolservis" ASC açıq havada təmir-bərpa işlərinin həyata keçirilməsini dayandırıb. Məlum səbəbdən iş prosesində fasilələr müəyyənləşdirilib.

❑ **Xalidə GƏRAY**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




**Elan**

**Şəxsi yük maşınımı girov qoymaq şərtilə "DAF"- (105) kub qara bazarda qiyməti 50.000 AZN bahadır. 1 il müddətinə aylıq (3-4)%-dan çox olmamaq şərtilə 25.000 AZN kreditə ehtiyacım vardır.**

**Yalnız Notorius qaydasında.**

**Əlaqə telefonu: (050) 387-47-57; (070) 387-47-57**



# Azərbaycanda 15 yaşlı gəlin intihar etdi

**Bərdə rayonunda intihar hadisəsi baş verib. "Report"un xəbərinə görə, Elçin Əsədov küçəsində rayon sakini, 2000-ci il təvəllüdlü Gülçin Əlizadə yaşadığı evin həyətində özünü asaraq öldürüb. Hadisənin hansı səbəbdən baş verdiyi bilinmir.**

Faktla bağlı Bərdə Rayon Prokurorluğunda araşdırma aparılır.

Qeyd edək ki, G.Əlizadənin ailəsi rayonun qaraçı məhəlləsində yaşayıb. O, yenicə ailə qurubmuş.



# Xəzər insanları niyə udur...

## “Dəyişkən hava suda axın əmələ gətirir, bu, üzə bilməyən və təcrübəsiz insanlar üçün təhlükəlidir”

**Çimərliklərdə boğulma halları son günlər daha da artıb. Demək olar ki, hər gün bir neçə nəfərin çimərlikdə boğulması haqda xəbərlər eşidirik. Fövqəladə Hallar Nazirliyinin yaydığı məlumata görə, 4-5 avqust tarixlərində dənizdə çimərkən düz 7 nəfər batıb - son 24 saat ərzində 7 nəfər həyatı ilə vidalaşıb, daha 4 nəfəri isə FHN-in xilasediciləri ölümün çəngəsindən qurtara biliblər.**

Həmin dəhşətli statistikanı da təqdim edirik: Bakının Xəzər rayonu - 1 nəfər (cəsədi hələ tapılmayıb). Bakının Xəzər rayonu - 1 nəfər. 1998-ci il təvəllüdlü Bədəlova Leyla Elşad qızı. Leyla Xəzər rayonunda dənizdə, ən yaxınlıqdakı xilasetmə məntəqəsindən 4 kilometr aralıda, nəzarətsiz ərazidə çimərkən batıb. Onun cəsədi tapılaraq, ailəsinə təhvil verilib. Bakının Qaradağ rayonu - 1 nəfər. 1997-ci il təvəllüdlü Akın Ərbin. Qaradağ rayonunda nəzarətsiz ərazidə çimən Ərbinin cəsədi də tapılaraq, yaxınlarına təhvil verilib. Bakı, Nardaran qəsəbəsi - 1 nəfər. Batan şəxsin axtarışları davam edir. Bakı, Sabunçu rayonu - 1 nəfər. 1997-ci il təvəllüdlü Əliyev Mübariz Məlikağa oğlu ən yaxın xilasetmə məntəqəsindən 650 metr sağda, nəzarətsiz yerdə suda batıb. Onun cəsədi tapılaraq, yaxınlarına təhvil verilib. Sumqayıt şəhəri - 2 nəfər. 1996-cı il təvəllüdlü Həmidov Elnur Etibar oğlu və 1997-ci il təvəllüdlü Tanrıverdiyev Anar Xalid oğlu. Xalaoğlu olan bu iki gənc ən yaxın xilasetmə məntəqəsindən 800-1000 metr aralıda, nəzarətsiz ərazidə çimərkən batıblar. Onların cəsədləri tapılaraq, yaxınlarına təhvil verilib.

Maraqlıdır, Xəzər dənizi niyə insanları udur? Bu qədər boğulma hallarının olmasına səbəb nədir? İnsanların laqeydliyi, yoxsa dənizdə nələrsə baş verir?

**Bütün yayı dənizdə dincələn və üzməyi çox sevən qəzetimizin əməkdaşı Elşən Məmmədəliyev bunun səbəbini dəyişkən havada insanların suya girməsi ilə əlaqələndirdi:** “Bəzən gah şimal, gah cənub, gah da şimal-qərb küləyi olur. Hava dəyişkəndir, bu cür hava da suda axın əmələ gətirir. Axınlar üzə bilməyən və təcrübəsiz insanlar üçün təhlükəlidir. Hava şəraiti 2-3 gün bu cür davam edəcək. Yaxşı olar ki, dənizə gedən adamlar əvvəlcədən hava ilə bağlı xəbərləri diqqətlə izləsinlər ki, gün ərzində hava neçə dəfə dəyişiləcək. Havanın dəyişkən olması o deməkdir ki, dənizdə təhlükəli vəziyyət var. Dəyişkən havada da suya yalnız qurşağa qədər girmək olar. Bir az çəkisi az olan adamları bu axın daha tez aparır. Cənub küləyində əsasən külək sahildən dənizə əsir. Şimal küləyində isə dənizdən sahilə əsir. Amma hərdən olur ki, qarışıq olur. Yeni şimal-qərb küləyi olur. Bu zaman da suyun alt qatında axın olur. Su əks tərəfə axır və sanki adamın ayağının altından çəkir. Sanki suyun üzü əks tərəfə gelir, altı isə dənizə tərəf gedir. Qarışıq axınlar əmələ gəlir. Ona görə də bu havada dənizdə üzən təcrübəsiz adamların batması an məsələsidir. Əgər kənarda xilasedici, üzməyi bacaran adam olmasa həmin adamların boğulması adi haldır. Batan adam çabalayıb qışqırır, bu zaman istər-istəməz su boğazına dolur. O adamı dartıb sahilə çıxarandan sonra da ona ilkin tibbi yardım göstərilməsi məsələsini çox adam bilmir. Sahildə olan 100 nəfərdən bəlkə 1-2 nəfər ilkin tibbi yardımı bilər. Bununla bağlı əhali arasında heç bir maarifləndirmə işi aparılmır. Fövqəladə Hallar Nazirliyinin, Səhiyyə Nazirliyinin və yaxud da digər müvafiq qurumların hansısa televiziya kanallarında və ya qəzetlərdə maarifləndirici reklamları olmalıdır ki, suda boğulan şəxslərə ilkin tibbi yardım necə göstərilsin”.

**E.Məmmədəliyev batma hallarının artmasının digər bir səbəbini də sahil ərazilərinin zəbt edilməsində və suyun içinə qədər hasarların çəkilməsində gördüyünü dedi:** “Boğulma hallarının digər bir səbəbi də sıxlıqla bağlıdır. Dəniz sahillərinin zəbt olunması hasarların dənizin içinə qədər getməsi dəniz sahilindəki suyun axınlarının qarşısını alır. Birdən-birə böyük bir ərazidə olmalı axın suyun içinə qədər hasarlanmış ərazilərin olması səbəbindən hansısa konkret bir yerdə daha yüksək sürətlə dövr etməyə başlayır. Bu da boğulmalara səbəb olur. Əvvəllər bu qədər adam batmırdı”.

Maraqlıdır, batan adama ilkin tibbi yardım necə göstərilməlidir?

Dəniz suyunda həll olunmuş maddələrin konsentrasiyası qana nisbətən çox olduğuna görə dəniz suyu ağ ciyərlərə daxil olan zaman qanın maye hissəsi zülallarla birgə qan damarlarından alveollara daxil olur. Bu, qanın qatılaşmasına, onun tərkibindəki kalium, natrium, kalsium, maqnezium və xlor ionlarının konsentrasiyasının artmasına gətirib çıxarır. Suda batanı xilas edərkən ehtiyatlı olmaq lazımdır. Belə ki, suda batan hər şeydən tutmağa cəhd etdiyi üçün o, xilasedəni də batıra bilər.

Batan şəxsə arxa tərəfdən yaxınlaşmaq, onu saçlarından, paltarının yaxalığından və ya qoltuqaltı nahiyəsindən tutaraq üzünü yuxarı çevirməklə onunla birlikdə sahilə tərəf üzmək lazımdır. Batan şəxsin sifəti mütləq suyun səthindən yuxarıda olmalıdır. İlk olaraq boğulan şəxsin nəfəs yollarından suyu xaric etmək lazımdır. Boğulan şəxsi şaquli istiqamətdə başı aşağı tutmaq və boğazına, qarnına dolan suyu boşaltmaq lazımdır. Bu zaman onun kürəyinə yüngülcə vurmaq, döş qəfəsini öndən və arxadan sıxmaq lazımdır ki, ağ ciyərlərdən su daha tez xaric olsun. Əgər xəstə hələ də özünə gəlməyibsə, bu zaman ürək masajı və paralel olaraq, süni tənəffüs verilməlidir. Əgər zərərçəkən huşunu itirməyibsə, tənəffüs yollarından suyu xaric etdikdən sonra onun əynindəki yaş paltarları çıxarmaq, bədənini spirt və ya quru dəsmalla ovxalamaq, içməyə isti maye vermək, onu isti bir şeyə bürümək, ayaqlarını bir qədər qaldırmaq və dərhal xəstəxanaya çatdırmaq lazımdır.

❑ **Günel MANAFLI**

# Yasamal qəbiristanlığı köçürüləsi olmadı?

## Bir əsr yaşı olan məzarlıqdan reportaj; dəbdəbəli müsəlman, sadə xristian qəbirləri

**Bakının ən böyük və ən bahalı qəbiristanlıqlarından olan Yasamal qəbiristanlığının köçürülməsi haqqında artıq bir neçə ildir ki, müzakirə gedir. Lakin bu müddət ərzində nə konkret bir qərar qəbul edilib, nə də hər hansı bir addım atılıb. Qeyd edək ki, Bakı Şəhər İcra Hakimiyyətinin köçürülməsi nəzərdə tutulan qəbiristanlıqlar siyahısında ilk yeri Yasamal qəbiristanlığı tutur. Səbəb isə odur ki, bu ərazidən keçən avtomobil yolu genişləndirilsə, Bakının Badamdar şossesindən Parlament prospektinə qədər olan yolu tıxacdan xilas edə bilər.**

Yasamal qəbiristanlığını ikiyə bölən, xristian və müsəlman qəbiristanlıqları arasındakı bu yol hazırda da istifadə olunur, lakin çox ensiz olduğundan iki avtomobilin yanaşı keçməsi mümkün deyil. Yol genişləndirilərkən məzarların bir qisminin, yoxsa bütün qəbiristanlığın köçürüləcəyi də, haraya köçürüləcəyi də bəlli deyil.

“Yeni Müsavat”ın müxbiri adı köçürülmədə hallanan məzarlığa baş çəkərək oradakı hazırkı durumla maraqlanıb.

Qeyd edək ki, Bakının ən böyük qəbiristanlıqlarından olan Yasamal qəbiristanlığının təqribən 1 əsrə yaxın yaşı var. Belə ki, ötən əsrin 30-cu illərində Azərbaycana düşmənçiliyi ilə fərqlənən qatı bolşevik Sergey Kirovun heykəlini Bakının ən uca məkanında - Dağüstü Parkda qoymaq üçün qədim Çəmbərəkənd qəbiristanlığı sovet hökuməti tərəfindən dağıdılıb. O zaman Bakı sakinləri əzizlərinin məzarını Yasamala köçürüb, köçürülməmiş məzarların üstü isə şumlanıb, park salınıb.




**50 ildən sonra yenidən park məzarlığa dönüb və 20 Yanvar şəhidləri hazırda orada uyuyur.**

**Yasamal qəbiristanlığının yaranması haqqında danışan burada çalışan Hacı Şakir adlı molla deyir ki, qəbiristanlığın sökülməsi haqqında söhbətlər getsə də, bu mümkünsüzdür:** “Bu qəbiristanlığın uzunluğu 3 kilometrdən çoxdur. Bir aralar söhbət gəzirdi ki, guya sökəcəklər, yolda tıxacın qarşısını almaq üçün. Ancaq hələ ki heç bir hərəkət yoxdur. Mətbuatda yazılar getsə də bu baş verməyəcək, sökülməyəcək”.

**Hacı Şakir onu da qeyd etdi ki, qəbiristanlıqların sökülməsi şəriətə ziddir:** “Dində göstərilib ki, 1 əsrdən az olan qəbirləri sökmək olmaz. Gərək qəbirlərin izi itsin. Qəbirlərin köçürülməsi yalnız müstəsna hallarda baş verə bilər”.

**Çəmbərəkənd qəbiristanlığına nəzarət edən Etibar adlı şəxs deyir ki, Yasamal qəbiristanlığında söküntü ilə bağlı yalan məlumatlar dolaşır:** “Hamı bilir ki, bu qəbiristanlıqlarda Azərbaycan uğrunda böyük xidmətləri olan insanlarımız, vətən uğrunda canını qurban verən oğullarımız yatır. Burada ictimai xadimlər, mədəniyyət adamları, elm xadimləri dəfn olunub”.

**Həmsöhbətim deyir ki, burada rus, yəhudi qəbiristanlıqları da var. Qəbiristanlıqlar bir-birindən ayrılıb. Onlar çox sadə və ucuz başa gələn qəbirlər sifariş edirlər. Bizim qəbirlər hazırlanarkən isə həddindən çox israfa yol verilir:** “Dəbdəbəyə çox önəm veririk. Ən bahalı mərmər daşlardan istifadə edib, bər-bəzək veririk. Lakin bu dəbdəbəli məzarlara ziyarət az olunduğundan onun dəbdəbəli olduğu heç görünmür. Baxımsızlıqdan üstünü kol-kos basır”.






**Həmsöhbətim deyir ki, buradakı rus və yəhudi qəbiristanlığı daha baxımsız vəziyyətdədir. Onlar demək olar ki, ölüləri nadir hallarda, bayramlarda ziyarət edirlər:** “Bizim millət isə ölüsünə daha çox dəyər verir. Düzdür, kimsəsiz, ziyarətçisi olmayan məzarlar da var. Lakin dini bayramlarda buraya gələnlərin sayı çox olur”.

**İslam dinində qəbirlərin köçürülməsinə icazə verilməsi hallarına gəlincə, bir çox din xadimlərinin fikrincə, məzarların köçürülməsinə bəzi zəruri hallarda icazə verilir. Lakin dində əsassız yerə qəbrin açılması, köçürülməsi yolverilməzdir. Bu barədə ilahiyyatçı Hacı Şahin Həsənlinin rəyi belədir ki, qəbiristanlığın yol çəkilişi məqsədilə köçürülməsi vacib sayılırsa, yol çəkilməsi mütərəqqi bir əməldir və İslam dinində insanların rifahı, rahatlığı naminə olan bütün əməllər bəyənilir:** “Bu məqsədlə qəbiristanlığın köçürülməsinə heç kim etiraz edə bilməz. Köçürülmə isə şəriət qaydalarına uyğun olmalıdır. Bir müsəlmanın məzarının köçürülməsi üçün əlavə hansısa ibadətə ehtiyac yoxdur. Çünki vəfat etdikdən sonra meyitlə bağlı bütün ibadətlər icra olunub. Deyək ki, meyit qüsulu verilib, kəfənlənib, cənazə namazı qılınıb. Qəbirlərin köçürülməsi zamanı əməl olunmalı yeganə tələb qəbrin üzü qibləyə tərəf olmasıdır. Dəfn olunan şəxsin qohumları istəsələr, qəbrin köçürülməsi prosesində iştirak edə bilərlər. Amma bu da vacib deyil. Məzarın üstündə Qurani-Kərimin oxunması da artıq mərhumun doğmalarının, yaxınlarının istəyinə bağlıdır. Yəqin ki, bu iş dövlət səviyyəsində həyata keçiriləcək, qəbir sahiblərinə müəyyən kompensasiyaların ödənməsi də mümkündür. Bəlkə də bahalı qəbirlər olduğu kimi digər qəbiristanlığa köçürüləcək. Amma məsləhət budur ki, insanlarımız əvvəlcə etdiyi səhvləri bir də təkrarlamasın, təmtəraqlı məzarüstü abidələr qoymaqdan imtina etsinlər”.

❑ **Məğrur SALMANOV**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT

Son səhifə

N 170 (6198) 6 avqust 2015

# Ata olmağa tələsməyin

Finlandiyanın Helsinki Universitetinin alimlərinin apardıqları araşdırmada 30 mindən çox kişi iştirak edib. İştirakçıların səhhəti və təhsil səviyyəsi nəzərə alınaraq aparılan araşdırmalar nəticəsində məlum olub ki, son 20 ildə 22-24 yaş aralığında ilk uşaqları dünyaya gətirən ataların ölüm riski digərlərinə nisbətən 14% daha çoxdur. Araşdırmaçıların sözlərinə görə, 30-44 yaşlarında ilk dəfə ata olanların ölüm riski 25 yaşda ata olanlardan 25% daha azdır. Ən yüksək ölüm riski 22 yaşında ata olanlara aiddir. Araşdırma aparıldığı müddətdə hər 20 kişidən biri həyatını itirib. Onların əsas ölüm səbəbləri isə 21% ürək xəstəlikləri, 16% spirtli içki içmələridir. Alimlərin sözlərinə görə, gənc yaşda ata olanlar stressə tab gətirmədikləri üçün həyatlarını itirirlər. Araşdırmanın nəticələri "Journal of Epidemiology and Community Health" jurnalında yayımlanıb.





## WhatsApp-da daha bir yenilik

Windows 10-a və yeni browserinə keçid etdinizsə, çox yaxında Whatsappı Edge üzərindən də istifadə edə biləcəksiniz. WhatsApp Web, WhatsApp istifadəçilərinin xidməti kompüterlərində, skaner üzərindən istifadəsini təmin edən xüsusi bir xidmətdir. Milli.az ucnoqta.az-a istinadən bildirir ki, ilk olaraq Google Chrome skanerinə gələn, sonra Firefox, Opera və Safari istifadəçilərinə da təqdim edilən WhatsApp Web, heç bir zaman Microsoftun skaneri İnternet Explorerə çata bilmədi. Amma indi bu vəziyyət dəyişə bilər.

Windows 10 ilə həyatımıza girən yeni brauzer Edge, çox yaxında WhatsApp Web dəstəyinə qovuşa bilər. Microsoft Program Managers Greg Whitworth və David Storey twitterdə yazdığı mesajda, Edge-yə WhatsApp Web dəstəyi qazandırmaq üçün çalışdıqlarını bildirib. Rəsmilər qeyd edib ki, bu açıqlamadan sonra, yaxın zamanda Edge altında WhatsApp Web xidmətini istifadə kimsə üçün sürpriz olmamalıdır. Ancaq hələ də İnternet Explorer istifadə edirsinizsə, çox da ümidli olmanızı tövsiyə etmirik.

# Çuğundurun bilmədiyimiz faydaları

Tərkibində mineral duzlar, vitaminlər, üzvü turşular və zülalları parçalayan maddələr olan çuğundur insan orqanizmi üçün çox faydalıdır. Çuğundurun faydalarını saymaqla bitməz. Bu tərəvəz həzmi yaxşılaşdırır, mikrobları öldürür, ürəyin işini tənzimləyir, trombların yaranmasının qarşısını alır. Tərkibindəki maqnezium sayəsində təzyiqin aşağı salınmasına kömək edir. Qalxanabənzər vəzin xəstəliklərində faydalıdır. Tərkibi yodla zəngin olduğu üçün zobdan əziyyət çəkənlər üçün əvəzolunmaz dərmandır.

Çuğundurun tərkibi antioksidantlarla zəngindir, qırmızı çuğundura rəng verən piqmentlər xərçəngə qarşı mübarizədə təsirlidir. A, B, C və P vitaminləri ilə zəngin olan bu tərəvəz qanazlığının dərmanıdır. Qanazlığından əziyyət çəkənlər bu tərəvəzi gündəlik menyularına daxil etməlidirlər. Salatlarda istifadə etmək çox yararlıdır. Bəzi ölkələrdə onu "qan meyvəsi" adlandırırlar. Bu da səbəbsiz deyil. Kök şirəsi ilə qarışdırılan çuğundur şirəsi qırmızı qan hüceyrələrinin sayını qısa zamanda çoxaldır.

Çuğundur eyni zamanda fosfor, dəmir, mis, maqnezium, kalsium, brom, sink və manqanla zəngin olub, immun sistemini gücləndirir. Xüsusilə soyuq qış aylarında qırmızı çuğundurla qidalanmaq orqanizmin müqavimətini artırır. Çuğundur şirəsi təzyiqə qarşı da təsirlidir. Bir stəkan çuğundur şirəsi təzyiqi aşağı salır. Müntəzəm olaraq bu tərəvəzdən istifadə edən insanların təzyiqi nizamlanır.





## Kraliçadan pis örnək

Danimarka kraliçası Marqaret nəvələrini gözdirən zaman siqaret çəkərkən görünüb. Uzun müddətdir siqaret aludəçisi olan kraliça tənqid hədəfinə çevrilmişdi. Aparılan araşdırmalara görə, ölkədə bir çox qadınlar siqaret aludəçisi olduqları üçün həyatlarını itiriblər. Kraliça isə qadınların bu pis adətinin səbəbi kimi göstərilir.

Lakin deyilənlərə baxmayaraq, o, xalqın və medianın gözü qarşısında siqaret çəkməkdən çəkinmir. Kraliça Marqaretin ailəsi onun siqaretdən uzaq durması üçün uzun müddət çalışsa da, istəyinə nail ola bilməyib. 75 yaşlı kraliçanın oğlunun da siqaret aludəçisi olduğu deyilir. Lakin şahzadə xalqın gözü qarşısında siqaret çəkmir. Kraliça isə bu pis adətini nəvələrinin gözü önündə belə təkrarlamaqdan çəkinmir.




QOÇ - Astroloji göstəricilər düşərli bir gün yaşayacağınızı bəyan edir. Ətrafınızda hər şey gözəl olacaq. Amma vaxt tapıb müqəddəs ziyarətgahlarımıza da baş çəkməyə çalışın.

BUĞA - Avqustun ən dəyərli günlərindən birini yaşayacaqsınız. Atdığınız addımlar ətrafda sizə qarşı böyük rəğbət yaradacaq. Amma unutmayın ki, gün ərzində mənfi enerjili Ay bürcünüzdə qərar tutacaq.

ƏKİZLƏR - Hansısa xoşgəlməzlik haqqında düşünməyə dəyməz. Çünki ulduzların düzümü günün əksər saatlarını xoş ovqatda keçirəcəyinizi bildirir. Təzə xəbərlər və pul da gözlənilir.

XƏRÇƏNG - Həddindən ziyadə məhsuldar gündür. Nəzərdə tutduğunuz planların əksəriyyətini reallaşdıra biləcəksiniz. Yeni təkliflərə razılıq verin. Əks təqdirdə, müttəfiqlərinizi itirəcəksiniz.

ŞİR - Təxminən saat 13-ə qədər ümumi əhvalınızda gərginlik müşahidə olunsa da, sonrakı müddəti normal şəkildə başa vura biləcəksiniz. Bütün iş və görüşlərinizdə Allahı yaddan çıxarmayın.

QIZ - Qərarlarınızda qətiyyətli olmasanız, qarşınıza çıxan mühüm şanslarınızı itirəcəksiniz. Risk etməkdən qorxmayın. Hər şeydən əlinizi üzəndə heç olmasa sevgi amilindən bəhrələnin.

TƏRƏZİ - Yaxşı olar ki, vaxtınızı bütünlüklə istirahətə həsr edəsiniz. Çünki hesablamalar fəaliyyətdə passivliyin hökm sürəcəyini göstərir. Qonaq getməyə, əylənməyə səy göstərin, hündür yerə çıxmayın.

ƏQRƏB - Ailə-sevgi münasibətlərində bütün proseslər ürəyinizcə olacaq. Bu səbəbdən də qarşı tərəfin rəylərinə hörmətlə yanaşmalısınız. Yeni sövdələşmələrdə təşəbbüskarlığı ələ alın.

OXATAN - Hiss olunur ki, ətrafınızda olanların əksəriyyəti fikirlərinizə qarşıdır. Lakin bunu əsəbi şəkildə qəbul etməməlisiniz. Sübut edin ki, haqqınızda deyilənlər doğru deyil.

OĞLAQ - O qədər də səmərəli təqvim deyil. Bir tərəfdən cəhdlərinizin boşa çıxması, digər tərəfdənsə səhhətinizlə bağlı problemlərin baş qaldırması əsəblərinizə mənfi təsir göstərə bilər.

SUTÖKƏN - Bəxtinizdə müəyyən qədər mübahisəli bir tarix durur. Odur ki, istər evdə, istərsə də iş yerində çılğınlıqdan uzaq olmalısınız. Konflikt yaratmaqdansa, barışdırıcı mövqe seçin.

BALIQLAR - Yeni simalarla rastlaşma ehtimalınız böyükdür. Ola bilsin ki, qarşılaşdığınız adamların bir çoxu mövcud problemlərinizin həllində əsaslı rol oynasın. Odur ki, buna hazır olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Rekord qırdığını bilmədi



Rusiyanın Kazan şəhərində keçirilən FINA Dünya Üzmə Çempionatı yarışlarında dünən qəribə hadisə baş verib. Yarışda Amerikanın təmsilçisi kimi iştirak edən Katie Ledecky fərqində olmadan 500 metrlik məsafəni 15 dəqiqə 27.71 saniyədə bitirərək sərbəst üzmə çempionu olub. Yarışdan sonra dünya rekordu qırdığını öyrənən Ledecky təəccübləndiyini və belə bir nəticə gözləmədiyini deyib. Gənc üzgüçünün məşqçisi isə 900 metrlik məsafəni sakit üzməsini, sadəcə, son 300 metrdə sürətlənməsinə ehtiyac olduğunu deyib.

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.300

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.